www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-23 aprel 2017-ci il Şənbə № 84 (6698) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakıda 245 çoxmərtəbəli bina söküləcək**

yazısı səh.4-də

**Gündəm**

**Amerika Türkiyə sərhədində "Kürdüstan" dövləti yaradır**


Məsud Bərzani

Tanınmış politoloq: "Qorxulu tendensiyadır, dünya üçün təhlükədir; bu, ABŞ-la razılaşdırılıb"

yazısı səh.5-də

**Gürcüstan proporsional seçki sisteminə keçir, bəs Azərbaycan?**

yazısı səh.10-da

**"Müəyyən qruplar TAP-ın tikintisinə çətinliklər yaşada bilər" - Vüqar Bayramov**

yazısı səh.6-da

**Baş liftçinin 10 milyonlarla ölçülən varidatı haqda yeni şok bilgilər**

yazısı səh.3-də

**Ədalətsiz vasitəçilər "triosu": Qarabağ məsələsi "üçlüyün" girovluğundan çıxacaqmı?**

yazısı səh.11-də

**4 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək**

yazısı səh.4-də

**AXCP ətrafında "saxta mühacir" qalmaqalı böyüyür**

yazısı səh.7-də

**Varlılar dəbdəbəli həyatlarını gözə soxmağı niyə sevir...**

yazısı səh.4-də

**Yollardakı sarı zolaqlarda hərəkət nə zamandan qadağan olunacaq...**

yazısı səh.12-də

**Atasını öldürən 17 yaşlı gənc psixiatriya dispanserinə göndərildi**

yazısı səh.14-də

**Deputatlar "Ovçular evi" ərazisindəki qalmaqaldan danışdılar**

yazısı səh.13-də

## Ankaradan ikinci diplomatik həmlə, növbəti təkan...

# ƏRDOĞANIN 2 KRİTİK MAY GÖRÜŞÜ - BAKININ İKİ GÖZLƏNTİSİ

Türkiyə lideri qısa fasilədən sonra yenidən Rusiyaya gedir; Putinlə görüşdən cəmi iki həftə sonra isə o, ilk dəfə ABŞ prezidenti ilə bir araya gələcək; düşmən tərəf təlaşda; **erməni tarixçi:** "Ankara və Moskva İrəvanı Qarabağı qaytarmağa məcbur edə bilər..."



yazısı səh.5-də

## Musa Pənahovun nazir müavini postunda qalmasının sirri: özünü necə "qoruya bilib"?

Azərbaycanın Ukrayna, Belarus, Moldova, Türkmənistan, Özbəkistan və Rusiya kimi ölkələrlə hökumətlərarası komissiyasında nəqliyyat sektorunda təmsilçilik bilavasitə M.Pənahova həvalə edilibmiş; nəqliyyat nazirliyində uzun müddət birinci müavin olmuş Pənahov peşəkarlığı sayəsində vəzifəsində qala bilib bilib, yoxsa...

yazısı səh.3-də


Bəxtiyar Sadıqov

**Türk şirkətinin İrəvana reys açması xəbərinə sərt təpkilər-YAP-çı deputatdan şok açıqlamalar**

yazısı səh.6-da



*Əflatun Amaşov:*

**"Mənim əvəzimə başqa birisinin - nazir müavininin qızının adını siyahıya əlavə etmişdilər..."**

yazısı səh. 8 və 9-da



*Mehriban Əliyeva:*

**"Bakı IV İslam Həmrəyliyi Oyunlarının açılışına hazırdır"**

yazısı səh.2-də

# Ziya Məmmədovun müşavirinin tutdurduğu qohumuna bəraət verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin sabiq nəzarətçisi Rövşən Əhmədova bəraət verilib. Aprelin 21-də hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı Rövşən Əhmədovun 10 il azadlıqdan məhrum edilməsini istəyib. R.Əhmədovun vəkili Adəm Məmmədov çıxış edərək məhkəmədə müvəkkilinə qarşı irəli sürülən ittihamın sübuta yetirilmədiyini deyib:**



"Həqiqətən Rövşən Əhmədov Çingiz Baxşıyevin qızıllarını götürmüşdüsə, niyə bunu 2 aydan sonra Rövşənə deyiblər? Başları qarışıq olub 7 kiloqram qızıl yaddan çıxıb? Rövşən Əhmədov günahsızdır və ona bəraət hökmü verilməsini xahiş edirik". Hökm elan edildikdən sonra R.Əhmədov məhkəmə zalında azadlığa buraxılıb.

Xatırladaq ki, Rövşən Əhmədov keçmiş nəqliyyat naziri Ziya Məmmədovun sabiq müşaviri Çingiz Baxşıyevin külli miqdarda əmlakını mənimsəməkdə təqsirləndirilir. O, Çingiz Baxşıyevə, qızları Fatimə İbrahimova ilə Sevil Baxşıyevaya ümumilikdə 800 min manat məbləğində maddi ziyan vurmaqda ittiham olunurdu. Ilkin olaraq Rövşən Əhmədova qarşı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülmüşdü. Sonradan ona Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə yeni məzmunda ittiham elan edilmişdi. R.Əhmədov ilk gündən ittihamları rədd edir, qondarma olduğunu bildirirdi. Deyirdi ki, həbsi Ç.Baxşıyevin qanunsuz, cinayət məsuliyyəti yaradan işləri haqda məlumatlı olduğu üzündən Ç.Baxşıyevin sifarişi əsasında gerçəkləşdirlib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bir sıra reklamlar qadağan edilir

**Azərbaycan Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında "Uşaq hüquqları haqqında qanuna" yeni maddənin əlavə edilməsi təklifi müzakirəyə çıxarılıb.**

APA-nın məlumatına görə, bu, yeni 11-1 (Reklamda uşaqların müdafiəsi) maddəsidir.

Maddəyə görə, ölkə üzrə bütün yerlərdə reklamlarda uşaqlara mənəvi və fiziki baxımdan zərərin qarşısını almaq üçün bir sıra qadağalar tətbiq olunur.

Bunlar valideynin (qəyyumların, himayəçilərin, tərbiyəçilərin və digərləri) nüfuzuna xələl gətirən, başqa şəxsə münasibətdə kobudluq, təcavüzkarlıq, nifrət hissi aşılayan, qüvvətləndirici sözlər vasitəsi ilə ailənin maddi vəziyyətindən asılı olmayaraq, əmtəənin əldə edilməsinin mümkünlüyü fikrini yaratmaqla valideynlərin bu əmtəəni almağa vadar edilməsi, həyat və sağlamlığa dair təhlükəli fikirlər, alkoqollu içkilərin istifadə olunması ilə bağlı uşaqlara müraciət edilməsi (eyni zamanda uşaqlar üçün proqramların alkoqollu içkilərin reklamına görə kəsilməsi) və s. bu kimi məlumatların verilməsidir.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Bakı IV İslam Həmrəyliyi Oyunlarının açılışına hazırdır"

## Mehriban Əliyeva: "Biz hər bir məsələyə çox böyük məsuliyyətlə yanaşırıq"

**Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclası keçirilib.**



APA-nın məlumatına görə, IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iclasda çıxış edib: "IV İslam Həmrəyliyi Oyunlarının rəsmi açılışına bir aydan da az vaxt qalır və bu gün Təşkilat Komitəsinin yekun iclasını keçiririk. Biz gərək əmin olaq ki, paytaxtımız Oyunların açılışına və keçirilməsinə tam şəkildə hazırdır, bütün lazımi tədbirlər görülüb, addımlar atılıb, yarışların keçirilməsi ilə bağlı və bütün istiqamətləri əhatə edən tədbirlər planı cavabdeh strukturlar tərəfindən yerinə yetirilir. Azərbaycanda çox vacib irimiqyaslı beynəlxalq tədbirlər keçirilir və hər bir belə tədbirin təşkili ən yüksək rəylər qazanıb. Biz öhdəmizə götürdüyümüz hər bir məsələyə çox məsuliyyətlə yanaşırıq və Azərbaycanın maraqlarını, beynəlxalq imicini üstün tutaraq, ölkəmiz və xalqımız üçün layiqli nailiyyətlər əldə etməyə çalışırıq".

**Son illər Azərbaycanın paytaxtında bir çox böyük beynəlxalq idman yarışları - həm Avropa, həm də dünya çempionatlarının keçirildiyini deyən M. Əliyeva qeyd edib ki, ümumi rəyə görə bu tədbirlər təşkilati baxımdan çox yüksək səviyyədə hazırlanır və keçirilir**: "2015-ci ildə Bakıda birinci Avropa Oyunları böyük uğurla keçirilib. Bu Oyunlar Avropanın Olimpiya hərəkatının yeni tarixində yeni səhifə açıb. Ümumi rəyə görə Azərbaycan dövləti birinci Avropa Oyunlarını Olimpiya Oyunları səviyyəsində təşkil edib. Ümidvaram ki, IV İslam Həmrəyliyi Oyunları da mükəmməl hazırlanıb və keçirilmiş Oyunlar kimi tarixdə qalacaq. Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Azərbaycan bütün müsəlman ölkələri ilə əlaqələrini dostluq, qardaşlıq, qarşılıqlı hörmət əsasında qurur və bu sahədə böyük uğurlara nail olub".

M.Əliyeva qeyd edib ki, ölkəmiz artıq bütün dünyada idman məkanı kimi tanınıb.

Yarışlar 1000-dən çox mətbuat nümayəndəsi tərəfindən işıqlandırılacaq. IV İslam Həmrəyliyi Oyunlarını 50-dən çox ölkədə, ümumilikdə 1 milyarddan çox tamaşaçının izləyəcəyi gözlənilir.

**M.Əliyeva qeyd edib ki, Oyunların uğurla keçirilməsində könüllülərin rolu xüsusi yer tutur:** "Bu günə qədər Təşkilat Komitəsi tərəfindən Oyunların uğurla keçirilməsi üçün bir çox tədbirlər görülüb və ümumiyyətlə, demək olar ki, şəhərimiz Oyunların açılışına hazırdır".

"Əfsuslar olsun ki, bir sıra müsəlman ölkələrində müharibə gedir, yeni münaqişələr, təhlükələr yaranır, İslam dinini terrorla əlaqələndirən güclərin sayı artır. Heç bir dinin, o cümlədən İslam dininin terrorla heç bir əlaqəsi ola bilməz". Bunu da IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin iclasında Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva deyib: "Din özü-özlüyündə terroru rədd edən amildir və İslam dini sülh, mərhəmət dinidir. Hesab edirəm ki, bütün müsəlman aləminin bir araya gəlməsi, dostluq, qardaşlıq, sülh, əməkdaşlıq amilləri ətrafında birləşməsi həm böyük bir idman bayramına çevriləcək, həm də müsəlman aləmində, müsəlman ölkələri arasında olan əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcək".

# Azərbaycan-Türkiyə birgə taktiki təlimləri keçiriləcək

**Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 5-dək hər iki ölkənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri keçiriləcək.**

APA-nın MN-in saytına istinadən verdiyi məlumata görə, təlimlərdə iştirak edəcək Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi hava bazalarından birində təntənəli qarşılanma mərasimi keçirilib.



Türkiyəli hərbi qulluqçuları hərbi birliyin zabiti polkovnik Münasib Babayev və Türkiyənin ölkəmizdəki hərbi attaşesi briqada generalı Zafer Ocak qarşılayıb. Hərbi orkestr dövlət himnləri səsləndirdikdən sonra Türkiyə hərbi qulluqçuları təlim dövründə yerləşəcəkləri "N" nömrəli hərbi hissəyə yola düşüblər.

Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Hakan Açıkgöz birgə təlimlərin vacibliyini vurğulayaraq qeyd edib ki, keçirilən təlimlərdə qazanılan təcrübə hər iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsirini göstərəcək.

Təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Birgə təlimlərdə şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədi ilə müasir müdafiə komplekslərii ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edəcək.

Təlimlərə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb.

# Bakıda məktəbli qıza küçənin ortasında hücum edildi

**Bakıda 15 yaşlı qıza qarşı soyğunçuluğa cəhd olub. "Report"un xəbərinə görə, hadisə paytaxtın Xəzər rayonu, Mərdəkan qəsəbəsi, B.Əliyev küçəsi ev 8 B ünvanının qarşısında qeydə alınıb.**

Həmin ərazidə naməlum şəxs 2002-ci il təvəllüdlü A.İ.-yə qarşı zor tədbiq etməklə məktəbli çantasını əlindən almağa cəhd edib.

Məktəbli qışqırdığından naməlum şəxs hadisə yerindən qaçaraq uzaqlaşıb.

Faktla bağlı araşdırmalar aparılır.



# Daxili bazarda təbii qazın qiyməti ucuzlaşa bilər

**Milli Məclisin bir sıra komitələrində təmsil olunan deputatların iştirakı ilə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib.**

Parlamentdən APA-ya verilən məlumata görə, komitənin sədri, Milli Məclis sədrinin müavini Valeh Ələsgərov iclasda Azərbaycan prezidentinin imzası ilə parlamentə daxil olmuş "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "SOCAR Umid Oil and Gaz Limited" şirkəti arasındakı Risk Xidmət Sazişini və ona əlavə olunmuş "Xəzər dənizinin Azərbaycan sektorunda Ümid yatağının və Babək perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı və işlənməsi üzrə neft-qaz əməliyyatlarının aparılması haqqında" "SOCAR Umid Oil and Gaz Limited" şirkəti ilə "Umid, Babek Exploration and Production" şirkəti arasında müqavilənin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsini slaydlarla təqdim edib.

O qeyd edib ki, 1953-cü ildə aşkar olunmuş "Ümid" yatağı üzrə kəşfiyyat işlərinin bərpası 2008-ci ildə qərara alınıb və bu məqsədlə "SOCAR Ümid" birgə müəssisəsi yaradılıb: "2010-2011-ci illərdə həmin birgə müəssisə tərəfindən aparılan kəşfiyyat işləri nəticəsində iki quyu qazılıb. İlkin hesablamalara görə, "Ümid" yatağında 2 milyard kubmetr təbii qaz və 40 milyon ton kondensat ehtiyatının olduğu müəyyənləşdirilib".

İclasda məlumat verilib ki, 1954-cü ildə aşkar edilmiş "Babək" perspektiv strukturunda isə 1987-ci ildə aparılmış geniş seysmik kəşfiyyat işləri nəticəsində strukturun bioloji quruluşu dəqiqləşdirilib. Ehtimala görə, bu strukturda "Ümid" qaz kondensat yatağı ilə hidrodinamik əlaqədə olan qaz kondensat yatağı aşkar edilə bilər.

Gündəlikdəki qanun layihəsində yer almış müqavilə barədə ətraflı məlumat verdikdən sonra komitə sədri Risk Xidmət Sazişinin müddəalarını da geniş şərh edib. Bildirib ki, məqsəd yerli bazarın neft-qaza olan tələbatını SOCAR-ın fəaliyyəti sayəsində ödəmək, xarici bazardan asılılığı azaltmaq, daxili bazarda təbii qaza olan tələbatı mümkün qədər aşağı qiymətə təmin etməkdir.

**Yekunda qanun layihəsi parlamentin plenar iclasına tövsiyə edilib.**

# Baş liftçinin 10 milyonlarla ölçülən varidatı haqda şok bilgilər

## Qüdrət Şükürovun erməni ilə iş birliyindən 1 milyon 700 min "otkat" aldığı iddiası var; onun Buzovnada 2 qoşa imarəti, saysız hesabsız varidatı, xüsusi hazırlanan "Mersedes"i və daha nələri varmış...

**Bakı Lift İdarəsinin rəisi Qüdrət Şükürov qızına 400 min dollarlıq toy etməsi ilə günlərdir ki, medianın diqqət mərkəzindədir. "Böyük Saray"dakı toy mərasimindən, toya qədər baş tutan digər mərasimlərin videolarından belə aydın olur ki, ölkəmizin lift təsərrüfatı tapşırılmış məmur korrupsiya pulları hesabına fantastik həyat yaşayır...**

Q.Şükürov uzun illərdir ki, Bakı Lift İdarəsində çalışır. O, idarədə hələ mühəndis kimi qurumdan liftlərdə istifadə edilən trosların yoxa çıxması faktı üzrə saxlanılıb. Amma həmin iş Q.Şükürovun yenidən vəzifəsinə qayıtmağa, daha sonra idarənin rəhbərliyinə gətirilməyinə mane olmayıb...

Q.Şükürov əvvəllər də medianın gündəmində olub. 2010-cu ildə ona məxsus "Range Rover" markalı maşından 210 min manat oğurlanıb. Həmin vaxt mətbuatda bu haqda geniş yazılar dərc olunub. Q.Şükürov oğurluq baş verdikdən sonra həmin maşını satıb. Hazırda o, Az 10 AA 828 nömrə nişanlı, ən son model S klass "Mersedes"də gəzir. Maşın "Mersedes" zavodunda xüsusi sifarişlə yığılıb, motorun həcmi 6.3-dür. İddialara görə, Q.Şükürov təkcə bu maşının yanacağına hər gün 100-120 manat civarında pul xərcləyir. O da bildirilir ki, xüsusi sifarişlə hazırlanan bu nəqliyyat vasitəsini Q.Şükürov 450 min avroya alıb. Bundan başqa, Q.Şükürovun "Range Rover" markalı, Az 10 ZZ 447 nömrə nişanlı maşınının olduğu deyilir. Bu maşının qiyməti də az deyil - 250 min dollar. Q.Şükürovun oğlu Samid Şükürovun Az 10 XO 777 nömrə nişanlı "Mercedes Qalendvagen", nömrə nişanının sonu 447 ilə bitən "Lexsus" markalı maşınları var.

Q.Şükürovun qızının həyat yoldaşı Oqtaya 160 min dollara aldığı iddia olunan "Porşe" markalı, Az 90 OA 900 nömrə nişanlı maşın da digərlərindən geri qalmır.

Zəngin həyat yaşayan Q.Şükürovun keçmiş kürəkəni ilə də bağlı maraqlı məlumatlar var.

Elşən Əsgərli məmur qızı Aysel Şükürova ilə 2012-ci ildə ailə həyatı qurub. Həmin il "Kral" şadlıq sarayında düzənlənən toy məclisinə Q.Şükürov bu ilin yanvarında qızı ikinci dəfə ərə gedən zaman xərclədiyi puldan daha artığını xərcləyib. İddia olunur ki, həmin vaxt Q.Şükürov 500-550 min civarında pul xərcləyib.

Nikah pozulub, uşağın atasını həbs etdiriblər...

2016-cı ilin sentyabrında isə Şükürovun qızı ilə Elşən Əsgərlinin nikahı pozulub. Bu izdivacdan dünyaya gələn, adı Uğur olan uşaq hazırda anasının yanındadır. Hazırda tərəflər arasında uşağa görə çox ciddi qovğa yaşandığı bildirilir. Bir neçə gün əvvəl Q.Şükürov və onun keçmiş qudası Rəfail Əsgərov bu qovğa üzərindən Nəsimi Rayon Polis İdarəsinə dəvət olunublar. Polisdə tərəfləri barışdırmağa çalışılıb, uşaqla atasının görüşünə şərait yaradılması təklif olunub. Amma məsələ çözülməyib. Bildirilir ki, sosial şəbəkə üzərindən də tərəflər arasında çəkişmə var. Q.Şükürovun yaxınları keçmiş qohumlarının zənən, məktəbli qız uşaqlarının fotolarını müxtəlif sosial şəbəkələrdə yaymaqla fotoların altına "20 AZN" yazıblar. Bu isə ciddi narazılığa səbəb olub. Hətta bir müddət əvvəl E.Əsgərli keçmiş qohumları tərəfindən metronun "Gənclik" stansiyasının yaxınlığına dəvət olunub. Onu orada A.Şükürovanın hazırkı həyat yoldaşı Oqtay 10 nəfərlə qarşılayıb və döyüblər. Bu məsələ ilə bağlı araşdırma aparılıb, amma cinayət işi E.Əsgərliyə qarşı başlanıb...

Bir neçə gün əvvəl E.Əsgərli bir daha Nəsimi rayonu ərazisində, "Bizim ev" kafesinin yaxınlığında döyülüb. Onu həmin kafeyə keçmiş həyat yoldaşının 2-ci əri Oqtay çağırıbmış.



İddialara görə, orada E.Əsgərliyə bildiriblər ki, həbsi üçün 30 min dollar pul ödənilib, övladı ilə görüş tələb etsə, həbsə alınacaq.

Maraqlı bir məqam da odur ki, E.Əsgərli Q.Şükürovun qızından ayrılandan sonra keçmiş qayınatası tərəfindən həbs etdirilib. Məsələ isə belə olub: E.Əsgərlinin qaynı Samid Şükürov ona zəng vurub və "uşaqla görüşmək istəyirsənsə, Buzovnadakı bağ evinə gəl" deyib. Ora gedəndə isə Cəmil adlı bağban E.Əsgərliyə hücum edib. E.Əsgərli isə oradan uzaqlaşıb. Bundan sonra Xəzər rayon Polis İdarəsi onun barəsində həbsli axtarış elan edib. Q.Şükürovun keçmiş kürəkənini növbəti gün tutub Xəzər Rayon Məhkəməsinə aparıblar. Amma onun bağbana qarşı zorakılıq etməsi təsdiq olunmayıb və E.Əsgərli məhkəmə zalından azad olunub...

***

Q.Şükürov deyir ki, 550 manat rəsmi maaş alır. Bir tərəfdə 550 manat maaş, digər tərəfdə milyonlar, fantastik həyat...

Bunlar hardan əldə edilib? Belə məlumat var ki, onun keçmiş qudası Rəfail Əsgərov müxtəlif dövlət orqanlarına şahidi olduğu məsələlər haqda son dərəcə ilginc bir müraciət yazıb.

O bildirib ki, bir neçə il əvvəl Q.Şükürovun təklifi ilə Moskvaya gediblər. 2013-cü ilin aprelinə təsadüf edən səyahət zamanı Q.Şükürov içki məclisindən sonra Moskvada yaşayan bir erməni ilə əlaqə saxlayıb. Həmin erməni Vardan Avakyan olub. "OTİS" lift zavodunun rəhbərliyində təmsil olunan V.Avakyana Q.Şükürov özünü qeyri-azərbaycanlı kimi təqdim etməklə onunla görüşmək istədiyini deyib. Növbəti gün isə onunla görüşə gedib.

R.Əsgərli yazıb ki, ermənilərin işğal etdiyi Qubadlı rayonundandır və həmin vaxt qudasını erməni ilə görüşə getməkdən imtina edib. Həmin görüşdən sonrakı günlərdə qudalar Moskvadan İstanbula uçublar. Q.Şükürov qudasına deyib ki, "OTİS" zavodu ilə müqavilə bağlayıb. İstanbulda olarkən qudalar ən bahalı yaşayış massivlərindən birinə - "Qoru-Floriya"ya gediblər. Orada Q.Şükürov hər birinin qiyməti 850 min dollar olan iki 4 otaqlı tam təmirli, içində bahalı mebelləri olan mənzil alıb. Mənzillərə görə ödənilən 1 milyon 700 min pulu "OTİS"in işçisi Andrey adlı şəxs "Qoru-Floriya"ya köçürüb! Sitat: "Bu mənim gözlərim qarşısında baş verdi. Mən ümumi söhbətlərdən başa düşdüm ki, həmin pul "otkat"dır".

Devalivasiyadan əvvəl Şükürov manatlarını 8 milyon dollara dəyişibmiş...

Q.Şükürov 2013-cü ildə o dövrdə qudası olan R.Əsgərovdan bir neçə dəfə də xahiş edib ki, onunla "Elmlər Akademiyası"nın yaxınlığındakı köhnə 5 mərtəbəli binanın 1-ci mərtəbəsində yerləşən "Azəriqazbank"ın filialına gedib pul çıxarsınlar. Hər dəfə 400, 500, 700 min dollar pul çıxarılıb. 2015-ci ilin fevralında - devalvasiyadan bir neçə gün əvvəl Q.Şükürov böyük panika içində manatda olan pullarını dollara çevirib. Həmin vaxt o, pullarını dollara çevirib, ailəvi dostu İlqarın adına "Bank of Baku"ya yatırıbmış. R.Əsgərov müraciətində Şükürovun banka yatırdığı məbləği də göstərib - 8 milyon dollar.

Q.Şükürovun var-dövləti bununla bitmir. Onun Bakının ən bahalı yaşayış binalarından hesab olunan "Gümüş plaza"da hər birinin qiyməti 2 milyon 500 min dollar olan 2 ədəd 5 otaqlı mənzilinin olduğu deyilir. Həmin binada Q.Şükürov yalnız ona və yaxınlarına xidmət edən Yaponiya istehsalı olan, qiyməti 400 min dolları aşan lift quraşdırtdırıb. Azərbaycan Ali Məhkəməsinin arxasındakı "Çıraq Plaza"nın 1-ci mərtəbəsindəki "Women SPA" mərkəzi də faktiki onundur. Təkcə bu mərkəzin təmirinə 4 milyon dollar xərcləndiyini qeyd edib. Hazırda həmin mərkəzi Q.Şükürovun həyat yoldaşı Aynurə Şükürova işlədir.

Təbriz küçəsinin qurtaracağındakı çoxmərtəbəli yaşayış binasında 2 ədəd 4 otaqlı, Səməd Vurğun parkının yanında 2 yaşayış mənzili, Nəsimi rayonu ərazisində isə oğlu Samid Şükürova bir neçə ay əvvəl böyük bir restoran aldığı da gələn məlumatlar sırasındadır. Q.Şükürov 2014-cü ildə Moskvanın mərkəzində 2 dənə 5 otaqlı mənzil alıb. 2015-ci ilin fevralında Q.Şükürov Tolyattidə bacanağı Müşfiqin qardaşı Salamın adına böyük - 6 mərtəbəli ticarət mərkəzi və şadlıq sarayı alıb. Buzovna qəsəbəsində 2 böyük torpaq sahəsindəki bənzərsiz imarətləri var. Birində özü, digərində qızı yaşayır. 8-ci kilometr yaşayış massivində 16 mənzili, 3 gözəllik salonunun olduğu da iddia edilir.

Q.Şükürovun keçmiş qudasının müraciətində ilginc detallardan biri də onun Xətai rayonu ərazisində, metronun "Xətai" stansiyasının arxasındakı çoxmərtəbəli binanın 2-ci mərtəbəsində şəxsi lift firmasının olması ilə bağlıdır. O firmaya Q.Şükürovun kürəkəninin qardaşı başçılıq edir. İddia olunur ki, Bakıdakı liftlərin sıradan çıxmasına yönələn hərəkətlərə də həmin firmanın əməkdaşları tərəfindən yol verilir. Bu haqda isə ötən sayımızda daha ətraflı və detallı yazı dərc etmişdik...

Q.Şükürovun qanunsuz əməlləri ilə bağlı digər maraqlı faktlar da əldə etmişik. Onları detallı şəkildə dəqiqləşdirdikdən sonra mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S. Qarşı tərəfi də dinləməyə, mövqeyini dərc etməyə hazırıq.***

# Musa Pənahovun nazir müavini postunda qalmasının sirri: özünü necə "qoruya bilib"?



**Azərbaycanın Ukrayna, Belarus, Moldova, Türkmənistan, Özbəkistan və Rusiya kimi ölkələrlə hökumətlərarası komissiyasında nəqliyyat sektorunda təmsilçilik bilavasitə M.Pənahova həvalə edilibmiş; nəqliyyat nazirliyində uzun müddət birinci müavin olmuş Pənahov peşəkarlığı sayəsində vəzifəsində qala bilib, yoxsa...**

Ləğv olunmuş Nəqliyyat Nazirliyində birinci müavin işləmiş Musa Pənahovun adı yenidən gündəmə gəlib. Belə ki, öncə məlumat yayıldı ki, o, yeni vəzifəyə təyinat alıb. Məlumatın mətnində yazılmışdı ki, aprelin 21-də prezident İlham Əliyevin sərəncamı ilə Musa Pənahov nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini vəzifəsinə təyin olunub. Lakin sonradan bu xəbər, daha doğrusu, prezident sərəncamı təkzib olundu. Musa Pənahov ölkə.az saytına deyib ki, özünün bu təyinatdan xəbəri yoxdur: "Təyyarədən az öncə düşmüşəm, ölkədə yox idim. Ona görə də heç nədən xəbərim yoxdur. Ancaq vəzifəyə təyin olunmağımla bağlı heç bir rəsmi məlumat yoxdur. Bunun üçün ölkə başçısının Sərəncamı olmalıdır".

Buradaca arayış verək ki, 2017-ci ilin fevralın 13-də ölkə başçısı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması haqqında sərəncam imzalayıb.

Adıçəkilən qurum Nəqliyyat Nazirliyi və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsasında yaradılıb.

Sərəncamda qeyd edilib ki, nazirliklərin birləşdirilməsində əsas məqsəd dövlət idarəetmə strukturunu təkmilləşdirmək, habelə nəqliyyat, rabitə və yüksək texnologiyalar sahələrində dövlət siyasətini və tənzimlənməsini müasir dövrün tələblərinə uyğunlaşdırmaq və səmərəliliyi artırmaqdır.

Prezidentin digər sərəncamı ilə Ramin Quluzadə birləşdirilmiş quruma nazir təyin edilib. Nəqliyyat naziri Ziya Məmmədov isə vəzifəsindən kənarlaşdırılıb.

O zaman Ziya Məmmədovun müavinlərinin də işdən kənarlaşdırılması baş vermişdi. Lakin sən demə yalnız M.Pənahov birləşdirilmiş nazirlikdə yerini qoruya bilibmiş. APA agentliyinin sonradan düzəliş xarakterli yaydığı məlumatdan da göründüyü kimi, İctimaiyyətin və medianın bilgisinin əksinə olaraq? heç demə Musa Pənahov vəzifədən çıxarılmayıbmış, sadəcə, NN-də 1-ci müavin vəzifəsi tuturdu, indi isə Rabitə və Yüksək Texnologiyalar Nazirliyində müavin kimi işinə davam edir...

Bu hesabla, hazırda rabitə və yüksək texnologiyalar nazirinin müavinlərinin sayı 4-dür. Əli Abdullayev birinci müavin, İltimas Məmmədov və Elmir Vəlizadə isə müavindirlər.

Belə bir xəbərin yayılması ilə gündəmə gələn və işsiz olmadığı bilinən Musa Pənahovun dosyesinə göz ataq: M.Pənahov 1959-ci ildə anadan olub, Moskva Nəqliyyat Mühəndisləri İnstitutunu və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Əmək fəaliyyətinə 1976-ci ildən Azərbaycan Dövlət Dəmir Yolunun Keşlə Yük Stansiyasında başlayan Musa Pənahovun gələcək karyerası sabiq nazir Ziya Məmmədovla yaxın dostluq əlaqələrinə görə reallaşıb. O, 1984-1988-ci ildə Azərbaycan Dövlət Dəmir Yolunun Bakı dəmir yol hissəsinin Plan-iqtisad şöbəsinin rəis müavini və rəisi vəzifəsində çalışıb. Musa Pənahov 2004-cü ildən 2017-cü ilin fevralına-yəni Nəqliyyat Nazirliyi ləğv edilənədək nazirin birinci müavini vəzifəsini icra edib.

Musa Pənahov uzun müddətdir təmsil olunduğu sektor üçün qiymətli kadrlardan sayılır. "Yeni Müsavat"a daxil olan məlumata görə, onun nazir müavini kimi saxlanmasında əsas səbəb uzun illər nəqliyyat və daşımaçılıq (loqostika) sektorundakı təcrübəsidir. Dəmiryolu ləğv olunmuş Nəqliyyat Nazirliyindən alındıqdan sonra M.Pənahov birinci müavin kimi əsasən, tranzit yüklər və liman daşımaçılığı sahəsini kurasiya edirdi. Daha bir maralı məqam budur ki, son illər demək olar ki, Azərbaycanın hökumətlərarası bütün komissiyalarında M.Pənahovun adı salınırdı. Araşdırmamız zamanı da bu, bir daha təsdiqləndi. Məsələn, iqtisadi əməkdaşlıq məsələləri üzrə Azərbaycanın Ukrayna, Belarus, Moldova, Türkmənistan, Özbəkistan və Rusiya ilə birgə hökumətlərarası komissiyasında nəqliyyat sektorunda təmsilçilik bilavasitə M.Pənahova həvalə edilib. Həmin komissiyalar hələ də işləkdir.

Məlumdur ki, Azərbaycan prezidentinin əsas diqqət ayırdığı sahələrdən biri də nəqliyyat sektoru və onun ayrılmaz hissəsi olan tranzit daşımaçılığıdır. Ölkəyə ciddi gəlir gətirə biləcək bu sahənin əsas yükü həm də yeni yaradılmış nazirliyin üzərinə qoyulub. Bu baxımdan, M.Pənahovun sistemdə saxlanması peşəkara möhtaclıqdan da doğa bilər.

Azərbaycan üçün o qədər də strateji ölkə olmayan Moldova ilə qohumluq və ya işgüzar əlaqələrinin M.Pənahovun postunu qorumasında əhəmiyyətli rolu olduğu inandırıcı deyil. Məlumdur ki, M.Pənahovun oğlu Moldovanın keçmiş prezidenti Voroninin nəvəsi ilə evlidir. Musa Pənahovun özünün biznes strukturlarını tam olaraq Moldovaya köçürdüyü barədə son günlər təsdiqlənməmiş xəbərlər var idi. Amma bunların heç biri onun kreslosunu qoruması üçün əsaslı səbəb kimi qəbul edilə bilməz.

**Etibarlı mənbənin dediyinə görə, ləğv edilmiş Nəqliyyat Nazirliyində korrupsiya ittihamları nə qədər ciddi olsa da, M.Pənahov özünü "qoruya bilib" və ya ölkə rəhbərliyi qarşısında təmizə çıxıb. Onun işini itirmiş digər müavin Arif Əsgərovdan fərqli olaraq, birləşdirilmiş nazirlikdə saxlanması da belə düşünməyə əsas verir.**

❑ **"YM"**

YENİ MÜSAVAT
N 84 (6698) 22 aprel 2017

# Varlı insanlar dəbdəbəli həyatlarını gözə soxmağı niyə sevir?

**Bütün dünyada insanlar üç - varlı, orta və kasıb təbəqəyə bölünür. Düzdür, insanlar üçün bu bölgü arzuolunmaz olsa belə, yaşam tərzindəki fərqlilik bunu kənardan hiss etdirir.**

Bir çox Avropa ölkələrində Azərbaycandan fərqli olaraq bu cür təbəqələr elə də seçilmir. Çünki orada ən varlı, milyarder insan belə istər geyim, istərsə də yaşam tərzində digərlərindən fərqlənmir və öz sadəliyi ilə seçilir. Sahib olduğu pulları isə daha sərfəli yatırımlar edir. Məsələn, məktəb açır, yardım edir və sairə. Deyə bilərik ki, dünyanın ən varlı adamları siyahısına daxil olan "Microsoft"un yaradıcısı Bill Qeyts yaşam tərzinə görə dəbdəbədən çox uzaqdır. Ancaq Azərbaycanda digər ölkələrdən fərqli olaraq varlılar daha çox şık həyata üstünlük verir və lüks yaşam tərzləri ilə gündəmə gəlməyi sevirlər. Bahalı toy, xına mərasimləri, bahalı istirahət, villalar, maşınlar və sairə.

Bu kimi insanlara son günlər qızına etdiyi 400 min dollarlıq toy mərasimi və zəngin həyatı ilə gündəmə gələn Bakı Lift İdarəsinin rəisi Qüdrət Şükürovu və onun kimi onlarla insanı göstərmək olar. Eləcə də incəsənət sahəsində olan adamlar, müğənnilər və sair. Türk müğənnilərinin və aktyorlarının fəaliyyətlərinə diqqət etsək, onların qazandıqlarını həm adlarını yaşadacaq, həm də onlara qarşı hörməti artıracaq sahələrə yatırım etdiklərini görərik. Məsələn, türk sənətçilərindən Gülbən Ergen, Necati Şaşmaz, Hülya Avşar, İbrahim Tatlısəs öz vəsaiti hesabına məktəb açdıran sənətçilərdəndir. Türk müğənnisi Sibel Can isə ata və anasının adını daşıyan orta məktəb açandan sonra bir məktəbi də öz adına açdırıb. Azərbaycanda isə təəssüf ki, sənətçilərdən belə bir addım olmayıb. Təəssüf ki, sənətçilər hansısa xeyirxah iş görəndə belə, *(məsələn, uşaq evinə oyuncaq alır və ziyarət edir)* bunu ictimailəşdirir və bir növ reklam kimi istifadə edir. Azərbaycanda zəngin insanlar öz pullarını daha çox restoranlara və bu kimi digər pul gətirən sahələrə yatıraraq pullarını birə beş artırıb təmtəraqlı həyatlarına davam edirlər.

*Maraqlıdır, nəyə görə məhz Azərbaycan zənginləri bu cür şık həyat tərzinə meyllidir?*

**Sosioloq Əhməd Qəşəmoğlu** bildirdi ki, cəmiyyətin xarakteri elədir ki, orada əhalinin 80 faizi həmişə kimisə yamsılamağa meyl edir: "Birmənalı olaraq aydındır ki, hansı cəmiyyətdəki imkanlı insanlar özünü, meşşanlığını nümayiş etdirir, o cəmiyyətdə maddi dəyərlər daha mühüm və aparıcı rol oynayır. Sosial psixologiyada tamamilə əsaslandırılıb ki, cəmiyyətlərdə 20 faizə qədər insan özünün düşüncəsi ilə hərəkət edir. Yəni cəmiyyətdə bu cür qanunauyğunluq var. Ona görə də bu cür insanlar şık davranışları ilə cəmiyyətə bir impuls verirlər. Yerdə qalanlar da istəyir maddi dəyərlərlə fərqlənsin. Bu isə min illərdir bütün müdrik adamların, peyğəmbərlərin, dini kitabların dediyi kimi hansı cəmiyyətdə ki, maddi dəyərlər önə keçməyə başlayır, o cəmiyyətdə günü-gündən gərginlik, kriminal vəziyyət, daha xoşagəlməz vəziyyətlər çoxalır. Çox təəssüf ki, indiki vaxtda bizdə özünü nümayiş etdirmək imkanlı adamlar daha çoxalıb. İmkanlı adamların əksəriyyəti isə əslində yarımçıq insanlardır. Çünki onların təhsil sistemində, bir şəxsiyyət kimi formalaşmasında təhsil faktoru bir çoxunda elə də mühüm rol oynamayıb və onun şəxsiyyət kimi formalaşması, mənəvi dəyərlər barədə geniş təsəvvürləri, yəni incəsənətlə, ədəbiyyatla, yaxşı tərəfdən dinlə təmasları arzu olunan şəkildə deyil. Dünyanın dahi insanlarından biri Nəsrəddin Tusinin hələ XIII əsrdə yazdığı, bizə tövsiyə etdiyi "Əxlaqi-Nasiri" əsərində ən mühüm məsələ nəslin tərbiyəsi məsələsidir. Amma çox təəssüf ki, bu siz deyiniz insanlarda nəslin tərbiyəsi arzu olunan şəkildə deyil. Ona görə də ortada bu cür yarışmalar gedir. Bu gün təşkil olunan toylar, yas mərasimləri və yaxud da başqa tədbirlərin hamısında sanki şirnikləndirmə var. Ona görə də günü gündən gərginlik artır. Biz əgər günü gündən kriminal hadisələrin, intiharların artmasını istəmiriksə, birmənalı olaraq bu cür özünü nümayişə sərt bir münasibət göstərilməlidir".





**Əhməd Qəşəmoğlu:** "Əhalinin 80 faizi həmişə kimisə yamsılamağa meyl edir"
**Azad İsazadə:** "Bəzən milyarder özünü sadə aparanda gülür və xəsis deyirlər"

**Psixoloq Azad İsazadə** Şərq ölkələrində dəbdəbəyə meyllik daha çoxdur. Burada biz mövzunu bir az geniş götürsək görərik ki, bu yalnız varlılara aid deyil. Kasıblarda çalışır ki, imkan daxilində dəbdəbəli toy keçirsin. Kimsə şəhərdə kirayədə qalır, amma bahalı maşında gəzir ki, görüntü olsun. Bu hamımıza xasdır. Sözsüz ki, kimin maddi imkanı daha genişdirsə, dəbdəbəli həyatını daha çox göstərməyə çalışır. Qərb ölkələrində də biz bunu görə bilərik. Bəzən milyarder insanların içində özünü sadə aparana, bahalı şeylər almayana gülürlər və xəsis deyirlər. Bu hansısa formada hər birimizdə var, bəzilərimizdə isə həddindən artıq genişdir".

**Psixoloq Azərbaycanda xeyriyyəçilik adət-ənənəsinin itdiyini dedi:** "Türkiyə ilə müqayisə etsək orada insanların xeyirxah addımı hansısa formada dövlət tərəfindən dəstəklənir. Xeyirxah bir iş görən insan vergidən azad edilir və s. Bu cəmiyyətdə müsbət qəbul olunur. Bizdə bu cür addımlar yoxdur. Azərbaycanda varlı insanlar bəzən öz varlığını xeyirxah işlərdə göstərməkdən çəkinirlər. Çünki o dəqiqə göz qabağına düşürlər... Ona görə də varlı insanlar çalışır pullarını özünə, həyatına xərcləməyə, amma kənara, xeyirxah işlərə xərcləməyə qorxur".

❑ **Günel MANAFLI**

# Bakıda 245 çoxmərtəbəli bina söküləcək

## "5 il müddətinə nəzərdə tutulmuş bu böyük tikinti layihəsi bugünkü templə davam edərsə uğurla həyata keçiriləcək"

**"Nazirlər Kabinetinin 2017-ci ilin I rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab prezident bir daha tikinti sektorunun inkişafı və əhalinin mənzil şəraitinin daha da yaxşılaşdırılmasına diqqət çəkərək, Bakı şəhərində 300-dən çox yeni hündürmərtəbəli bina tikildiyini, Bakının müxtəlif yerlərində artıq müddəti keçmiş və yararsız vəziyyətdə olan binaların sahibkarlar tərəfindən sökülərək köhnəlmiş, qəzalı vəziyyətdə olan o binaların yerində hündürmərtəbəli, gözəl memarlığı ilə seçilən binalar tikildiyini qeyd etdi. Ölkə başçısının inşaat sektorunun inkişafına belə yüksək diqqət və qayğısı bizi çox sevindirir".**



APA xəbər verir ki, bunu **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Abbas Ələsgərov** "İnşaatçı" qəzetinə *(qurumun rəsmi nəşri - red.)* müsahibəsində bildirib.

Onun sözlərinə görə, Dövlət Komitəsi Bakı şəhərinin müvafiq rayonlarının ərazisində köhnəlmiş və qəzalı vəziyyətdə olan binaların sökülərək, yerində müasir tələblərə uyğun yenilərinin tikilməsi və qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı Nazirlər Kabinetinin 25 fevral 2016-cı il tarixli, 86 nömrəli qərarının icrasında yaxından iştirak edir və müvafiq rayon icra hakimiyyətləri tərəfindən təqdim olunan ərazi və ərazi hissələrinin yenidən qurulması üçün tələb olunan ərazi planlaşdırma sənədlərinin razılaşdırılmasını həyata keçirir: "Qeyd olunan qərarın qəbulundan bu günədək Bakı şəhərinin yerli icra hakimiyyəti orqanları tərəfindən təqdim olunan 80 ərazi planlaşdırma sənədindən 60-ı Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən razılaşdırılıb. Bu isə öz növbəsində ümumi yaşayış sahəsi 2,6 milyon kvadratmetr olan 245 hündürmərtəbəli yaşayış binası və ya 25000 mənzil deməkdir. Artıq real olaraq söküntü işlərinə və əhalinin köçürülməsinə başlanılmışdır. Eyni zamanda onlarla hündürmərtəbəli yaşayış binaları artıq tikilir. 5 il müddətinə nəzərdə tutulmuş bu böyük tikinti layihəsi bugünkü templə davam edərsə uğurla həyata keçiriləcək. Ölkə başçısının da qeyd etdiyi kimi, bu layihələrin icrası sosial mahiyyət kəsb etməklə yanaşı, həm də şəhərimizin gözəlləşməsinə xidmət edir. Vətəndaşlar yeni mənzillərə köçürülür, qəzalı binalardan canı qurtarır, eyni zamanda, həmin vətəndaşlara əvvəlkindən təxminən 10, bəzi hallarda 20, yaxud 30% daha böyük ölçüdə təmirli mənzillər verilir. Həmçinin, yeni binaların tikildiyi müddətdə sakinlər sahibkarların hesabına şəhərdə kirayə evlərdə, yaxud da sakinlərin əvvəl yaşadıqları həmin ərazidə tikilmiş əsas binanın mənzillərində müvəqqəti yaşayış yeri ilə təmin edilirlər. Bunu, sakinlərin heç bir xərc çəkmədən qəzalı vəziyyətdə olan mənzillərinin, yeni, daha rahat və geniş mənzillərlə əvəz olunduğu sosial mənzillər hesab etmək olar. Çünki köhnəlmiş və qəzalı vəziyyətdə olan həmin binalar istismar müddətini başa vurduğu üçün artıq həmin binaların sakinləri üçün real təhlükə mənbəyinə çevrilmişdi. Məhz bu layihə həmin problemləri vaxtında həll edə biləcək sosialyönümlü vacib tədbirlərdəndir. Bizdə olan məlumata görə, xaricdə sosial mənzillər, hündürlüyü 3 mərtəbədən çox olmayan və əsasən bir mərtəbədə bir neçə mənzilli koridor tipli yığcam mənzillər nəzərdə tutulur və belə tikililər massiv şəklində şəhər ətrafında aparılır".



# 4 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş tərkibdə kollegiya iclası keçirilib. Komitənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov deyib ki, bütün obyektiv çətinliklərə baxmayaraq, dövlət başçısının rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı inkişaf etdiyindən bütün əsas vəzifələr icra olunub. Əli Həsənov qeyd edib ki, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin də fəaliyyətinin prioritetidir və xanım Mehriban Əliyevanın sədrliyi ilə keçirilən ilk müşavirənin bu problemə həsr olunması bunun əyani sübutudur.**

Komitə sədri bildirib ki, hazırda məcburi köçkünlər üçün digər yerlərdə yeni binalar tikilir, qəsəbələr salınır. Onlardan biri Tərtər rayonunda inşa edilən böyük qəsəbədir. Bu qəsəbə yaxın aylarda istifadəyə veriləcək: "Eyni zamanda, Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlərin problemlərinin də yaxın vaxtlarda öz həllini tapacağına əminliyi bildirən dövlətimizin başçısının da vurğuladığı kimi, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan dörd min köçkün ailəsi yeni evlərə köçürüləcək. Bu proses mərhələli yollarla həll ediləcək, həm yeni binalar tikilir, eyni zamanda, vaxtilə tikilmiş mövcud binalarda mənzillər alınacaq və məcburi köçkünlər orada yerləşdiriləcək".

Artıq Prezidentin və Birinci vitse-prezidentin tapşırıqlarına əsasən bu istiqamətdə işlərə başlandığını, bunlarla bağlı hərtərəfli müzakirələr aparıldığını diqqətə çatdıran Əli Həsənov deyib ki, ilkin mərhələdə Masazırda məcburi köçkünlər üçün salınmış məhəllənin ərazisində 3, Ramana qəsəbəsi ərazisində isə 1 beşmərtəbəli bina inşa olunur. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində aparılan bərpa işləri də sürətlə davam etdirilir.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 84 (6698) 22 aprel 2017

## Ankaradan ikinci diplomatik həmlə, növbəti təkan...

# Ərdoğanın 2 kritik may görüşü - Bakının iki gözləntisi

Türkiyə lideri qısa fasilədən sonra yenidən Rusiyaya gedir; Putinlə görüşdən cəmi iki həftə sonra isə o, ilk dəfə ABŞ prezidenti ilə bir araya gələcək; düşmən tərəf təlaşda; erməni tarixçi: "Ankara və Moskva İrəvanı Qarabağı qaytarmağa məcbur edə bilər..."



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 3-də Rusiyaya səfər edəcək. Bu barədə Türkiyənin dövlət başçısının mətbuat xidmətinin təmsilçisi deyib. Lakin o, təfərrüatları açıqlamayıb. Rəsmi Kremldən də görüşlə bağlı məlumatı təsdiqləyiblər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov iki liderin deyilən tarixdə Soçidə bir araya gələcəyini bildirib. Bununla belə, o da görüşün gündəliyini açıqlamayıb.**

Ancaq şübhə yox ki, iki liderin müzakirə etməli olduğu bir sıra aktual məsələlər var. Bura xüsusən də ABŞ-ın Bəşər Əsəd rejiminə məlum raket zərbəsindən sonra yaranan həssas situasiya (Ərdoğan Putindən fərqli olaraq, ABŞ-ın hava zərbələrini dəstəkləmişdi), Suriya böhranının mümkün həll yolları, həmçinin iki ölkə arasında iqtisadi-ticari əlaqələrdə son vaxtlar yaranmış bəzi əngəllərin aradan qaldırılması, viza məsələsi, "Türk axını" layihəsi, hərbi-texniki əməkdaşlıq *(o sırada Ankaraya S-400 raket kompleksləri satılması və s.)*, habelə gündəmin digər mövzuları daxildir.

Şəksiz ki, regional xarakterli bəzi digər məsələlərin də müzakirə ediləcəyi istisna edilmir. Söhbət öncəliklə Dağlıq Qarabağ konflikti də daxil, Güney Qafqazdakı münaqişələrdən gedir. Yeri gəlmişkən, Ərdoğan hər Rusiya səfərində Qarabağ məsələsinə də diqqət ayırmağa çalışır. Təxminən iki ay öncə - bu ilin martında (9-10) Moskvaya etdiyi səfər zamanı da qardaş ölkənin rəhbəri Azərbaycanın bir nömrəli problemini diqqətdən kənar qoymamış, bir daha Rusiya-Azərbaycan-Türkiyə "üçlü formatı"nın yaradılması zərurətini dilə gətirmişdi. Maraqlı məqamlardan biri də elə cənab Ərdoğanın iki ay sonra yenidən Putinlə görüşə yollanmasıdır...

***

Türkiyə və Rusiya arasında siyasi, iqtisadi-ticari və hərbi sahələrdə əməkdaşlıq isə həmişə olduğu kimi, yenə də çox işğalçı Ermənistanı narahat edir. Rəsmi İrəvan ehtiyat edir ki, Moskva-Ankara yaxınlaşması, üstəlik, bu fonda Bakı-Moskva-Ankara formatının da yaradılması xüsusən də Dağlıq Qarabağ məsələsində işğalçı tərəfin ənənəvi mövqeyini zəiflədə, Ermənistanın Rusiya üçün strateji önəmini azalda və İrəvandan birtərəfli güzəştlərin tələb edilməsinə gətirə bilər.

"Türkiyə və Rusiya maraqlarının üst-üstə düşəcəyi təqdirdə Ermənistanı Qarabağ ətrafındakı torpaqları qaytarmağa məcbur edəcəklər". Virtualaz.org saytı "Ermənistan xəbərləri"nə istinadən bildirir ki, bunu aprelin 21-də jurnalistlərlə görüşdə tarixçi Gevork Yazıçyan deyib. Onun sözlərinə görə, maraqlar Azərbaycanın Avrasiya İqtisadi Birliyinə və hətta KTMT-yə daxil olmasında, neft məsələsində üst-üstə düşə bilər.

"Türk axını" həyata keçirilərsə, Rusiyanın Türkiyədən gözləntiləri çox olacaq. Bizim isə Rusiyaya verəcək heç nəyimiz yoxdur. Onlar bizi artıq saymırlar, biz onlar üçün amil deyilik", - Yazıçyan bildirib. "İlk növbədə, Qarabağ məsələsində bizi əraziləri güzəştə getməyə məcbur edəcəklər. Bunun əvəzində Rusiya Azərbaycandan nəsə əldə edəcək, məsələn, ölkənin Avrasiya İqtisadi Birliyinə daxil olmasını", - deyə erməni tarixçi əlavə edib.

***

Maraqlıdır ki, may ayında Ərdoğanın ABŞ prezidenti Donald Trampla da yüksək səviyyəli görüşü planlaşdırılır - həm də bu, onların ilk görüşü olacaq. Belə ki, Soçi təmasından təxminən iki həftə sonra - mayın 16-17-də Türkiyə və iki ölkənin prezidentləri bir araya gələcəklər. Bu barədə Türkiyənin "A News" informasiya portalına açıqlamasında prezident Ərdoğanın özü deyib. Lakin görüşün harada baş tutacağı haqda heç nə deyilmir.

Məlumata görə, prezidentlər əsasən İŞİD-lə mübarizə mövzusunu müzakirə edəcəklər. Həmin görüşü Rusiya da yəqin ki, diqqətlə izləyəcək. Birinci ona görə ki, bu təmas Ərdoğanın Putinlə təmasından dərhal sonraya təsadüf edəcək. İkincisi, isə Türkiyə uğrunda bir ABŞ-Rusiya rəqabətinin getməsi səbəbilə xüsusi diqqətdə olacaq.

***

Azərbaycan üçün də liderlərin qarşıdakı görüşləri mühüm əhəmiyyət kəsb edir. Əvvəla o səbəbə ki, həm Putin-Ərdoğan, həm də Ərdoğan-Trapm təmasları havasından barıt qoxusu gələn böyük bir bölgə ilə bağlı situasiyaya yəqin ki, əhəmiyyətli aydınlıq gətirəcək. Bu üç böyük dövlətin Suriya və başqa böhranlı məsələlər üzrə ortaq əməkdaşlıq imkanlarına işıq salacaq. Bu isə Azərbaycanın yer aldığı Güney Qafqaz regionu üçün də mühümdür.

İkincisi isə, ABŞ və Rusiya Qarabağ problemi ilə bağlı yaradılmış ATƏT-in Minsk Qrupunun üç həmsədrlərindən iki ən mühümü, Türkiyə isə bölgəyə, Qarabağ məsələsinə ciddi təsir imkanı olan böyük regional oyunçudur. İstisna deyil ki, üç böyük oyunçunun Yaxın Şərq, Suriya böhranı ilə bağlı hansısa ortaq nöqtələr tapması Cənubi Qafqazdakı duruma da pozitiv təsirlərini göstərsin.

**Hər necə olmasa, Türkiyə liderinin gözlənilən iki kritik görüşündən, daha doğrusu, iki diplomatik həmləsindən Bakının da ən azı iki gözləntisi var.**

❑ Siyasət şöbəsi

# Amerika Türkiyə sərhədində "Kürdüstan" dövləti yaradır

## Politoloq Qabil Hüseynli: "Qorxulu tendensiyadır, dünya üçün təhlükədir; bu, məncə, ABŞ-la razılaşdırılıb"

**Şimali İraq Kürd Muxtariyyətinin rəhbəri Məsud Bərzani Almaniya Xarici İşlər naziri Ziqmar Qabriellə birgə keçirilən mətbuat konfransında Kürdüstanın müstəqilliyi üçün referendum keçirilməsinə qərar verdiklərini bəyan edib. Kürd lider referendum tarixinin müəyyən edilməsi və müvafiq hazırlıqların aparılması üçün komissiya yaradılması işlərinə başlanıldığını bildirib:**

"Bu qərarımızı tənqid edənlər hələ ki, referendumun nə demək olduğunu anlamayıblar. Referendum prosesi zamanı Bağdad başda olmaqla, bütün lazımi tərəflərlə əlaqədə olacağıq. Zorakılığa meyl edilməyəcək".

Bərzaninin bu bəyanatı verdiyi gün Vaşinqton bəyan edib ki, ABŞ Şimali İraq Kürd Muxtariyyətinə 300 milyon dollar dəyərində silah, sursat yardım edəcək.

Baş verənləri və Kürdüstan dövlətinin elan edilməsinin bölgəni necə etkiləyəcəyini şərh edən **politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, hələ Barak Obama hakimiyyəti zamanında vitse-prezident Co Bayden Kürdüstanın müstəqilliyi barədə açıq şəkildə vəd vermişdi. Bu da mediada geniş əks-səda doğurmuşdu, Türkiyənin və rəsmi Bağdadın etirazına səbəb olmuşdu. Son proseslər isə onu göstərir ki, məsələ artıq çox ciddiləşib: "Artıq Məsud Bərzani şimali İraq ərazilərində müstəqilik referendumu keçirmək istəyir. Bu, məncə, ABŞ-la razılaşdırılıb. Üstəlik bir sıra mühüm Avropa dövlətləri ilə də razılaşdırıldığını söyləmək olar. Almaniya ilə Türkiyə arasında münasibətlər son zamanlar xeyli pisləşib. Hollandiya və Avstriya ilə də münasibətlər yaxşı deyil. ABŞ-la da AKP iqtidarı münasibətləri korlayıb. Münasibətlərin pisləşməsinə gedilədə sanki bunun aqibəti haqqında düşünülməyib. Nəzərə almaq lazım idi ki, bu bölgənin taleyində ruslardan çox rol oynayan dövlətlər var və bu dövlətlər Türkiyə üçün ciddi problemlər yarada bilər. İndi həmin problemlərin yaradılmasına başlayıblar".



Məsud Bərzani

**Politoloq dedi ki, Türkiyənin sərhədində müstəqil kürd dövlətinin yaradılmasının ən ciddi zərbəsi Türkiyəyə dəyə bilər. Türkiyənin şərq bölgələrində kompakt yaşayan kürdlər gələcəkdə həmin müstəqil kürd dövlətinə birləşmək üçün hərəkətə keçə bilərlər:** "Kürdüstan dövlətinin yaradılması bölgəni çox ciddi təlatümlərə gətirəcək. Müstəqil kürd dövlətinin yaradılması yaxın Şərqdə arzu olunan ideya deyil, bu, separatçılıq hərəkəti kimi qarşılanacaq. Çünki yaxın Şərqdə ərazilərin yenidən düzənləndirilməsi prosesinə başlanması ərəb dövlətlərinin hamısının, o cümlədən də Türkiyənin, İranın ciddi etirazına səbəb olacaq. Bu, bir barıt çəlləyinə bənzəyir və bu barıt çəlləyi ayrı-ayrı iri dövlətlərin əlində başqa dövlətlərə qarşı, o cümlədən Türkiyəyə qarşı istifadə olunacaq.

Bu məsələyə ABŞ hə deyə bilər, amma 26 ərəb dövlətinin heç biri, Türkiyə, İran buna hə deməyəcək. Ona görə də bu məsələ ətrafında bölgədə böyük bir müharibə vəziyyəti yarana bilər. İndi Ərdoğanın Trampla görüşü planlaşdırılır. O görüşdə yəqin ki, Kürdüstan məsələsi öncəlik kəsb edən məsələ kimi müzakirə mövzusu olacaq. Yəqin ki, Ərdoğan nəhayət Fətullah Gülən məsələsini deyil, Türkiyə üçün daha ciddi təhlükə kəsb edən müstəqil kürd dövlətinin yaranması məsələsini ön plana çəkəcək".

**Politoloq deyir ki, bölgədə yeni bir dövlətin yaranması bütün dövlətləri çalxalayacaq, hətta dünya üçün yeni problemlər yaranacaq:** "Olduqca qorxulu tendensiyadır. Müstəqil kürd dövlətinin yaranması bölgədə yeni ittifaqların, məsələn, Türkiyə-Səudiyyə Ərəbistanı-İraq-Misir ittifaqının yaranmasına gətirib çıxara bilər. İraq hətta silahlı yolla müqavimət edəcək.

Kimlərsə düşünə bilər ki, ABŞ İraqın və digər adını çəkdiyim dövlətlərin etirazını yatırdacaq. Ancaq bu, heç də asan məsələ deyil. ABŞ bölgədən xeyli uzaqda yerləşən bir dövlətdir. Bölgədəki sadaladığım dövlətlərə təzyiq yolu effektli yol olmaz. Təzyiqlə istənilən nəticəni almaq mümkün deyil. Təzyiq olsa bütün bölgədə Suriyadan betər bir vəziyyət yarana bilər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 84 (6698) 22 aprel 2017

# Türk şirkətinin İrəvana reys açması xəbərinə sərt təpkilər - YAP-çı deputatdan şok açıqlamalar

**Türkiyənin məşhur aviaşirkəti olan "Pegasus" İstanbuldan İrəvana uçuş həyata keçirəcək. Musavat.com xəbər verir ki, bu barədə erməni KİV-ləri yazıb. Ermənistan mediasının iddiasına görə, 1 iyundan etibarən "Pegasus" aviaşirkəti İstanbuldan İrəvana aviareyslər həyata keçirməyə başlayacaq. Məlumata görə, aviaşirkət uçuşları həftədə üç dəfə - bazar ertəsi, çərşənbə və cümə günləri həyata keçirəcək.**

Yayılan xəbərlər ardından Azərbaycanda da məsələ ətrafında müzakirələr başlayıb. Doğrudur, hələ rəsmi şəkildə uçuş həyata keçirilməyib, amma bütün bunlara baxmayaraq ölkəmizdə ciddi narahatlığın olduğu göz önündədir. Türk hökumətinin uçuşa maneə olacağına ümidlər böyükdür. Lakin erməni KİV-lərinin yaydığı xəbərə hələ də qardaş ölkədən reaksiya verilməməsi narahatlığı artırır.

Qeyd edək ki, 1990-cı ildən fəaliyyət göstərən "Pegasus" şirkəti ucuz aviabiletləri ilə məşhurdur. Azbüdcəli uçuşlarıyla tanınan "Pegasus" ötən ilin martından Azərbaycana ayaq açmışdı. Lakin iddialara görə, süni əngəllərdən sonra şirkət ölkəmizdə fəaliyyətini dayandırmağa məcbur olmuşdu. Çoxları düşünür ki, əslində "Pegasus" məhz bu səbəbdən İrəvana reys açır.



**Bəxtiyar Sadıqov:** "İstanbul-İrəvan reysləri var, gün ərzində bir neçə dəfə uçur"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** bildirdi ki, Türkiyədə ermənilərə münasibət olduqca aqressivdir: "Saxta "erməni soyqırımı"nın tanınması ilə bağlı bütün dünyada iş aparırlar, bununla bağlı türklər həbs edilirlər. Türkiyəyə ərazi iddiaları irəli sürürlər və heç bunu gizlətmirlər də. Hərbi doktrinalarında düşmən ölkə kimi Türkiyənin adını çəkirlər. Birmənalı şəkildə qardaş ölkəyə qarşı mübarizə aparırlar. Belə bir vaxtda bu cür addım atmaq Türkiyənin adına başa düşülən məsələ deyil. Daim Türkiyə rəsmilərinin dilindən eşitmişik ki, Dağlıq Qarabağ məsələsi həll olunmayınca, Türkiyə-Ermənistan münasibətləri ola bilməz. Amma indi belə bir addım atılarsa, təbii ki, anormal qarşılana bilər, Türkiyə cəmiyyətinin özündə də sərt təpkilərlə üzləşər. Düşmənlə düşmən kimi danışmaq lazımdır. Kimsə 5-10 manat qazanmaq üçün reys açacaqsa, buna indidən etiraz edənlərdən biriyəm. Bir faktı da unutmaq olmaz ki, bu xəbəri erməni KİV-ləri yazıb. İnanıram ki, bu məsələdə Türkiyə tərəfi doğru qərar qəbul edəcək".

**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** hesab edir ki, Azərbaycan-Türkiyə arasındakı qardaşlıq münasibətləri elə səviyyədədir ki, bir aviaşirkətin İrəvana reys açması bunu sarsıda bilməz: "Məsələyə səmimi dostluq, dövlətlərarası münasibətlər baxımından yanaşsaq, əlbəttə, xoşagələn hal deyil. Azərbaycanın nefti, qazı və digər təbii sərvətləri var. Ölkəmiz bu sərvətlərdən istifadə edəndə hər zaman qardaş ölkə ilə bölüb, daim güzəşt edib. Ən çətin günlərdə iki qardaş ölkə bir-birinin yanında olub. Bu hələ XX əsrin əvvəllərindən belə olub. Azərbaycan baxmayaraq ki, Türkiyədən əhali və ərazi baxımından kiçikdir, amma heç vaxt prinsipial məsələlərdə qardaş ölkəni tərk etməyib, onun düşmənlərindən qorxmayıb. İndiki vaxtda Türkiyədən Ermənistana müəyyən reyslərin olması, tir maşınlarının gedib çoxsaylı ticarət etməsi sirr deyil. Bu dəfələrlə Azərbaycan Parlamentində səslənib. Hər dəfə deyirlər ki, bu özəl qurumlardır, dövlətə dəxli yoxdur. Amma bunlar bəhanədir. Əgər biz sərvətimizi böləndə Türkiyəyə güzəştlər ediriksə, onlar da para qazanmaq məqamı gələndə dostla düşməni ayırmalıdırlar. Vacib deyil ki, hökmən Ermənistandan para qazanasan, ermənilər gizli miqrant kimi Türkiyəyə gəlib oradan pul qazanıb getsinlər. Heç vaxt Azərbaycan tərəfi belə şeylərə getməz. Əgər Azərbaycan prezidenti bilsə ki, özəl bir şirkət iki qardaş ölkənin münasibətlərinə xələl gətirir, Türkiyənin mənafeyinə toxunan hərəkətlər edir, ona qətiyyən yol verməz. Məsələn, Türkiyənin dövlət maraqlarına zidd olan addımlar atdığına görə, ANS telekanalı ciddi şəkildə cəzalandırıldı. Guya Türkiyədə bilmirlər ki, İstanbul-İrəvan reysləri var. Gün ərzində bir neçə dəfə uçur. Bizim deputatlar Türkiyədə olanda İstanbulda təyyarə gözləyəndə bunun şahidi olurlar. Tabloda açıq şəkildə elan olunur. Bunların hamısı sərhəddən keçir, ola bilməz ki, dövlət bunu görməsin. Əgər dövlət bunu görüb reaksiya vermirsə, ancaq təəssüf doğura bilər. Bu dostluğa, qardaşlığa uyğun deyil. Ölkənin vətəndaşı Azərbaycan-Türkiyə münasibətlərinə zərər olan addımlar atır, amma onun barəsində tədbir görülmür. Bu çox təəssüf doğuran məsələdir. Bütün dünyada "erməni soyqırımı"nı ermənilər qəbul etdirməyə çalışırlar. Onlar Türkiyədən təzminat, ərazilər qoparmaq istəyirlər. Ermənilərin "soyqırımı"nın ölkəmizə dəxli yoxdur. Əksinə ermənilər Xocalıda azərbaycanlıları qırıblar. Ermənilər Ağrı dağını istəyirlər. O necə türkdür ki, erməni bu gün də onun ərazisini qoparmaq istəyir, ölkəsini dünyada soyqırımı törədən dövlət kimi təqdim edir, o isə pula görə ermənilərlə əlaqə qurur. O təyyarədən istifadə edən türklər də ilk növbədə, öz dövlətlərinə xəyanət edirlər, sonra isə Azərbaycana. İndi bu yollarla ermənilərə xidmət edən, İrəvana gedib-gələn türkləri öncəliklə Türkiyəyə, sonra isə bizə xəyanət edən insanlar kimi təqdim edirəm. Biz hər zaman bütün dəyərlərə sadiqik. Hesab edirəm ki, pulu dostluq, qardaşlıqdan üstün tutanların məsələsinin üstünə Türkiyə rəhbərliyi tezliklə qayıdacaq, belə halların da qarşısını qətiyyətlə alacaq".

❑ Cavanşir ABBASLI

# İtaliya məhkəməsi TAP-ın tikintisinə yaşıl işıq yandırdı

## Vüqar Bayramov: "Müəyyən qruplar məhkəmənin qərarının icrası ilə bağlı çətinliklər yaşada bilər"

**İtaliya məhkəməsi Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan Trans Adriatik Boru Kəmərinin (TAP) İtaliya hissəsinin tikintisi üçün marşrut üzərindəki zeytun ağaclarının köçürülməsi prosesinin dayandırılması ilə bağlı Latsio vilayəti məhkəməsinin qərarını ləğv edib. "Reuters" agentliyinin yaydığı xəbərə görə, bu barədə vəkil Mariano Alterio bildirib.**

Qeyd edək ki, bu qərar İtaliyada TAP üzrə işlərin yenidən başlamasına yol açır. TAP konsorsiumunun İtaliya üzrə sözçüsü də məhkəmənin boru kəməri üzrə işlərə yenidən başlamaq barədə qərar verdiyini təsdiqləyib.

Qeyd edək ki, bu il aprelin 6-da Latsio vilayəti məhkəməsi TAP-ın tikintisi üçün İtaliya Ekologiya Nazirliyinin Apuliya regionunun Melendunyo şəhərində boru kəmərinin marşrutu üzərindəki zeytun ağaclarının köçürülməsi ilə bağlı qərarını ləğv edib. Bundan sonra zeytun ağaclarının köçürülməsi işləri dayandırılıb.

Xatırladaq ki, bu il martın 27-də İtaliyanın Dövlət Şurası TAP-ın tikintisinə icazə verib.

Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan TAP kəməri ilə ilkin olaraq "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan qazın Avropaya nəqli nəzərdə tutulur. Bu boru kəməri Türkiyə-Yunanıstan sərhədindəki Kipoy ərazisində TANAP (Trans-Anadolu) boru kəmərinə qoşulacaq və Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanacaq.



Boru kəmərinin ümumi uzunluğu 878 km-dir. Bunun da 550 km-i Yunanıstan ərazisini, 215 km-i Albaniyanı, 105 km-i Adriatik dənizini, 8 km-i isə Cənubi İtaliyanı əhatə edəcək.

İlkin mərhələdə boru kəməri ilə ildə 10 mlrd. kubmetr "mavi yanacaq" Avropaya çatdırılacaq. 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. 2020-ci ildə Azərbaycan qazının Avropaya çatdırılacağı nəzərdə tutulur.

"Yeni Müsavat"a açıqlamasında TAP ətrafında gedən bu proseslərə və İtaliya məhkəməsinin çıxartdığı son qərara münasibət bildirən **iqtisadçı-ekspert Vüqar Bayramov** bu qərarın çox önəmli olduğunu vurğuladı: "Onu da nəzərə almaq lazımdır ki, məhkəmənin qərarının icrası ilə bağlı çətinliklər yaşana bilər. Daha öndə də bu məsələ ilə bağlı İtaliya məhkəməsinin qəbul etdiyi qərarların icrasında problem yaranmışdı. Çünki ekologiya tərəfdarları hələ də məhkəmənin qərarının icrasına qarşıdırlar. Hazırda 221 zeytun ağacının köçürülməsi ilə bağlı problem davam edir. Məhkəmənin ağacların köçürülməsi ilə bağlı qərar verməsi bu məsələdə bir nikbinlik yaradır. Çünki prosedurun qısa müddətdə başa çatdırılmasına ehtiyac var. Havaların qızdığını və yay mövsümünün gəldiyini nəzərə alsaq, bu ağacların köçürülməsini mümkünsüz edəcək. Nəticədə TAP-ın inşası ilə bağlı problem yaranacaq".

**Ekspert hesab edir ki, məlum qruplar məhkəmə qərarının icrasına da əngəl törədə bilər:** "Məhkəmə qərarı verdi. Ancaq bunun icrası ilə bağlı proqnoz vermək çox çətindir. Həmin qruplar yenə də prosesi yubatsalar, bu prosesin payıza qədər təxirə salınmasına gətirib çıxara bilər. Bu birbaşa olaraq İtaliya hökumətinin və qərarın icrası ilə məşğul olan qurumların fəaliyyətindən asılı olacaq. Əgər həmin qurumlar qərarın icrasına nail olacaqlarsa, o zaman proses yubanmayacaq. Lakin yenə də ekoloji qruplarla qərarın icrasına məsul olan dövlət qurumları arasında, polis arasında qarşıdurma olarsa, nəticə etibarilə prosesin yenidən yubanmasına gətirib çıxara bilər".

**V.Bayramovun fikrincə, TAP İtaliya və Avropa üçün , bu ölkələrin enerji təhlükəsizliyinin təminatı üçün vacibdir:** "O baxımdan məhkəmənin qərarı İtaliyanın maraqlarına uyğundur. İtaliya hökuməti ağacların köçürülməsində maraqlıdır. Çünki söhbət bu ölkənin enerji təhlükəsizliyinin formalaşmasından gedir. Lakin Avropa Birliyinə üzv olmayan və bu kəmərin reallaşmasını istəməyən bəzi ölkələr ekologiya tərəfdarlarını, ağacların köçürülməsinə etiraz edənləri dəstəkləyirlər. Hətta onlara maliyyə yardımı olunduğu da güman edilir. Əslində prosesin uzanmasında və ləngiməsində maraqlı tərəf İtaliya və AB ölkələri deyil. Avropa Birliyinin enerji təhlükəsizliyinin formalaşmasında maraqlı olmayan şirkətlər və dövlətlərdir".

❑ Nərgiz LİFTİYEVA

**AXCP ətrafında cərəyan edən saxta sənəd qalmaqalı məsələsi getdikcə böyüyür. Belə ki, Azərbaycan Xalq Cəbhəsinin sədri Əli Kərimli Baş Prokurorluğun Ağır Cinayətlərə dair işlər üzrə istintaq idarəsinə dindirilməyə çağırılıb.**

# AXCP ətrafında saxta sənəd qalmaqalı böyüyür

## Mühacir biznesi ilə bağlı partiya rəhbərliyi istintaqa nələri deyib?; Tural Hüseynov: “Fikrət Hüseynli mənə qarşı dələduzluq edib və mənim pulumu mənimsəyib”

Onun və digər partiya üzvlərinin dindirilməsi “partiya adından saxta sənədlərin verilməsi və bu yolla insanların mühacirətə göndərilməsi iddiaları” ilə bağlı olub.

Bu barədə “BBC Azərbaycan”a açıqlama verən AXCP sədrinin müavini Gözəl Bayramı bildirib ki, istintaq idarəsində 5 saata yaxın dindiriliblər.

Cümə axşamı **partiyanın Təşkilat Şöbəsinin sədri Saqif Qurbanov** da istintaq idarəsində ifadə verib.

Baş Prokurorluğun mətbuat xidməti bu məsələ ilə bağlı şərh verməyib.

**Gözəl Bayramlı** dindirilmə zamanı ona “saxta sənədlər düzəltməklə xaricdə oturum icazəsi alınması faktı” üzrə suallar verildiyini deyib. O, bu fakt üzrə ibtidai istintaqa şahid qismində dəvət edilib.

G.Bayramlı deyib ki, AXCP “bu işlə əlaqəli deyil” və partiya bu adla saxta sənəd düzəldənlər barədə “faktların açıqlanmasında maraqlıdır”.

Lakin mövcud faktlar başqa şey deyir. Son illər mətbuat səhifələrində tez-tez pul müqabilində saxta sənədlər düzəldərək insanları mühacirətə göndərən qrup haqqında çoxsaylı materiallar dərc olunub. Görünür artıq müvafiq qurumlar bu qrupların izinə düşüb və müvafiq addımlar atırlar.

Ötən saylarımızda mühacir jurnalist, AXCP-yə yaxın olan, “Azadlıq” qəzetinin əməkdaşı Fikrət Hüseynlinin AXCP üzvü Tural Hüseynova qarşı saxta sənədlə bağlı dələduzluğu barəsində məlumat vermişdik.


Tural Hüseynov


Fikrət Hüseynli

**Tural Hüseynov** bu məsələ ilə bağlı “Yeni Müsavat”a yeni açıqlama verərək bildirib ki, hazırda qonşu ölkələrin birindədir: “Hazırda qonşu ölkələrin birində özəl işlə məşğulam. Növbəti addımım əgər ehtiyac olarsa, Fikrət Hüseynlinin səs yazılarını ictimaiyyətə təqdim etmək olacaq. O səs yazılarında Fikrət Hüseynli səfirlik və konsulluqla bağlı məsələlərdən danışır”.

**T.Hüseynov bildirib ki, o dələduzluqla üzləşməsi ilə bağlı açıqlama verdikdən sonra Fikrət Hüseynli onu sosial şəbəkələrdə blok edib**:

“Yazı dərc olunduqdan sonra Fikrət Hüseynli mənim facebook profilimi bloka atdı. AXCP rəhbərliyi tərəfindən mənə qarşı hər hansı bir irad bildirilməyib. Nə rəhbərlik, nə də üzvlər tərəfindən heç bir münasibət bildirilmədi. Hazırda gedən söhbətlərə münasibətim çox mənfidir və bunları AXCP-yə qarşı şər-böhtan sayıram. Fikrətlə aramızda olan məsələ ilə əlaqədar işimdən oldum, evimin əşyalarını satdım, qır-qızılı satdım və olan qalan hər şeyim əlimdən çıxdı... İndi üz tutmuşam ayrı bir ölkəyə. Çalışıram burda pul qazanıb ailəmi dolandıram. Bundan sonra itirdiklərimi bərpa etmək haqqında fikirləşirəm... Üz tutacağım heç bir yer yoxdur. Mən Fikrət kimi insanın öz layiqli cəzasını almaqdan yana bu işi ictimailəşdirdim. Bu qədər yalan və haqsızlığa dözə bilməzdim. Üzvü olduğum partiya mənim arxamda durmalı və Fikrətə layiq olduğu cavabı verməlidir. Onlardan gözləntim budur”.

**T.Hüseynov bildirib ki, o, özündən başqa digər şəxslərin də bu kimi dələduzluqla üzləşdiyinin şahidi olub:** “Tanıdığım insanlar var ancaq o insanların razılığı olmadan mən onların adın hallandıra bilmərəm. Fakt budur ki, bu adam mənə qarşı dələduzluq edib və mənim pulumu mənimsəyib (düzəldə bilmədiyi iş müqabilində). Onu da qeyd etmək istəyirəm ki, bu insanın əməlləri haqqında istər mətbuatda, istərsə də facebook səhifələrində dəfələrlə belə məlumatlar gedib. Dəhşətlisi isə ondadır ki, bu adam hər dəfə bu işlərin altından sürüşərək çıxmağı bacarır və ona qarşı çıxan adamları hakimiyyətin satılmışı, ona şər atan adam kimi qələmə verir. Adama deyərlər nə oldu, hər kəs satılmış oldu bir sən saf və təmizsən?”

❑ **Əli RAİS**

# Xımır-xımır yeyənlərin məxməri korrupsiyası



**Xalid KAZIMLI**

**Qanunun aliliyi qorunan mədəni ölkələrin heç birində korrupsionerlrin açıq havadarları olmur. Mediada adı hallanan, əlində milyonlar tutulan, tam olmasa da, qismən ifşa olunan bütün korrupsionerlər “yanır”.**

Yalnız bizdədir, hər korrupsionerin arxasında özündən yüksək mənsəbə malik havadarlar, vəkillər dəstəsi, mediada müdafiəçilər qrupu, ictimaiyyət içində qəhmar çıxanlar kontingenti peyda olur.

Beləlēri dövlət büdcəsindən milyonlarla vəsaiti çırpışdırıb mənimsəyən, əlcəkli-əlcəksiz xalqın cibinə girən, bütün nəsil-nəcabətini öz korrupsioner taboruna cəlb edən adamların üstünə toz qondurmur.

Heç bir bəraət qazandırılması mümkün olmayan, sovet dövründə ən ağır cəzaya layiq görülən korrupsionerlərin müdafiəçiləri adətən belə bir müdafiə arqumentindən istifadə edirlər: “Hamı necə, o da elə”; “Kim almır, yığmır ki?”; “Oğurladığı pulların hamısı ona qalmayıb ki.. özündən böyüklərlə bölüb”; “Bilmirsiniz ki, büdcədən ayrılan pulların yarıdan çoxunu onların əlindən dərhal alırlar?” və s.

Sanki birinin, beşinin, yüzünün korrupsioner olub, dövlət büdcəsini talaması başqalarına da talançı olmaq haqqı verir. Belə bir şey olarmı? Bu halda dövlət süqut edər, ölkə dağılar. Hamı ifrata varmış acgözlüklə, tamahkarlıqla dövlət, xalq malını talasa, əlinə düşən fürsətlərdən maksimum yararlanmağa, şəxsi varidatını artırmağa çalışsa, o zaman məmləkətin halı fəna olar.

*Onları bir tormozlayan, çəkindirən, vicdansızlıq, əliəyrilik etmələrini buxovlayan , əndazələrini aşanda cəzalandıran lazımdır, yoxsa yox?*

Çox təəssüf ki, bizdə bu cür mexanizmlər yoxdur. Nə dövlət adamlarının fəaliyyətinə nəzarət edən qurumlar var, nə də xalq nəzarəti. Formal olaraq o cür dövlət qurumları olsa da, əslində onlar da korrupsiya mexanizminin bir vintidir, korrupsionerlərin paraziti kimi fəaliyyət göstərirlər, onlardan qidalanırlar.

Bunları danmaq özünü aldatmaqdır. Bu gerçəkliklərə göz yumaraq uzun-uzadı dövlətçilikdən, inkişafdan danışmaq da əbəsdir.

Budur, dünənə qədər adı ictimaiyyətə bəlli olmayan, ölkədəki minlərlə müəssisədən bir olan Lift İdarəsinin rəisi haqda xoşagəlməz məlumatlar açıqlanıb, yayılıb, tirajlanıb, amma bir tədbir görən yoxdur. Əksinə, bir azdan himayədar və havadarlar yavaş-yavaş onun ətrafında toxunulmazlıq haləsi hörəcəklər.

“Başqa korrupsionerlərdən niyə yazmırsınız” deyənlər də artmaqdadır. **Birincisi**, indiyədək bu cür ifadələri hər dəfə hansısa korrupsioner ifşa olunanda dilə gətirirlər.

**İkincisi**, barəsində yazılmayan korrupsioner, demək olar ki, qalmayıb.

**Üçüncüsü**, yavaş-yavaş hamıya sıra gəlir.

**Dördüncüsü**, biz adi bir media qurumuyuq, Korrupsiyaya Qarşı Mübarizə İdarəsi deyilik, həmin adamları müntəzəm şəkildə ifşa etmək bizim vəzifə səlahiyyətlərimizə daxil deyil. Biz əsasən ifşa edilmiş korrupsionerlərlə “işləyirik”, məhkəmələrindən reportajlar veririk. Belə daha yaxşıdır, əks halda bu ölkədə iş başında olan korrupsionerə heç nə sübut etmək mümkün olmur, adamı məhkəməyə verib cərimələtdirirlər.

Məsələn, ləğv edilmiş MTN-in yüz cür maxinasiyalar törədən, biznesmenləri girov götürüb, boyunlarına xərac qoyan generallarından (onlar ifşa olunmazdan qabaq) yazmaq mümkün idimi? Hə, bir dəfə yazmaq olardı. Sonra o yazanların başına nə işlər gələcəkdi, bu artıq generalların fantaziyasından asılı idi.

Yaxud Rabitə Nazirliyinin dövlətin milyonlarını mənimsəyən idarə rəislərinin əməlləri barədə yazmaq mümkün idimi? Mümkün idi. Amma bu informasiyalar bizə kim verəcəkdi? Birtəhər o informasiyaları ala bilsəydik də, məhkəmədə necə sübut edəcəkdik? Bir şey ki, hazırda yeddi prokuror, üç hakim onların boynuna törətdikləri cinayətləri qoymaqda çətinlik çəkir.

Çünki bu ölkənin korrupsionerləri şəbəkə halındadır. Bu, arakəsməli şəbəkədir, xana-xanadır. Bir xanadakı korrupsionerlər çetesi ifşa olunanda o biri xanalara təsir edir, amma onlar başlarını salamat saxlaya bilir, pərdə arxasında ifşa olunmuş korrupsionerlərə havadarlıq da edirlər.

Bu da faktdır ki, bu ölkədə yalnız siyasi planda səhv buraxmış korrupsionerləri mühakimə edirlər, hansısa idarə və müəssisələrə daraşıb dövlətin milyonlarını xımır-xımır yeyənlərə, məxməri korrupsiyaya qurşananlara isə dəyib-dolaşan yoxdur.

**Bir daha o qənaətə gəlirik ki, korrupsiya ilə mübarizə təkcə mətbuatın işi deyil, bundan ötrü xüsusi dövlət strukturları var və bu, xalqın nəzarətində olmalıdır. Yoxsa hər kəs öz rayonunun, öz nəslinin korrupsionerini müdafiə edəcəksə, bu durum iflasa, süquta qədər dəyişməyəcək.**

# İslam oyunlarına 12 min polis cəlb olunacaq

**İslam oyunlarına 12 min polis cəlb olunacaq. Musavat.com xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Oqtay Kərimov nazirlikdə keçirilən geniş kollegoya iclasında bildirib.**



O, bu mühüm beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkili məqsədilə Azərbaycan prezidentinin 2015-ci il 18 sentyabr tarixli Sərəncamı ilə Təşkilat Komitəsinin yaradıldığını, möhtərəm dövlət başçısının qarşıya qoyduğu vəzifələrin tam və vaxtında yerinə yetirilməsi üçün texniki vasitələrə, əşya və ləvazimatlara olan tələbatın müəyyən edilməsi, təşkilati iş, şəxsi heyətin hazırlığı, profilaktik tədbirlər, ictimai qaydanın qorunması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahələrində qarşıda duran vəzifələrin planlı surətdə yerinə yetirildiyini diqqətə çatdırıb.

Bildirilib ki, bütövlükdə, daxili işlər orqanlarından bu mühüm əhəmiyyətli beynəlxalq tədbirə cəlb ediləcək şəxsi heyətin sayı 12 min nəfər olacaq. Onlardan da 252-si qadın əməkdaşlardır. Əməliyyat Komitəsi ilə birgə aparılmış ilkin hesablamalara əsasən, nəzarət-buraxılış yerlərində 154 ədəd X-RAY və 286 ədəd stasionar metal detektordan istifadə edilməsi nəzərdə tutulur. Bununla əlaqədar, xüsusi yoxlama avadanlıqlarında xidmət aparacaq 1.800 əməkdaş praktiki məşğələlərə cəlb edilib. Yol hərəkətinin təhlükəsizliyi və yüksək səviyyəli nümayəndə heyətlərinin müşayiəti üzrə görüləcək işlər də diqqət mərkəzindədir. Bu istiqamətdə qarşıda duran vəzifələr yol-patrul xidmətinin 1200-ə yaxın əməkdaşı tərəfindən xüsusi təyinatlı 400 avtomobildə təmin ediləcək.

Bundan əlavə, ictimai asayişə nəzarətin fasiləsiz həyata keçirilməsi məqsədilə hazırda yarış və qeyri-yarış obyektləri ətrafında 214 nöqtədə 642 videomüşahidə kamerasından istifadə edilir. May ayının 1-dək isə buraxılış rejimində tətbiq olunacaq hər bir stasionar metal detektorun qarşısında “üztanıma” funksiyalı 267 kamera quraşdırılacaq. Ümumilikdə, bu gün respublika üzrə “Təhlükəsiz şəhər” sisteminin 3.270 nöqtədə 12 min, habelə şəxsi mülkiyyətdə olan obyektlərə aid avtonom rejimdə işləyən daha 100 min videomüşahidə kamerası fəaliyyət göstərir.

**İclasda qeyd olunub ki, I Avropa Oyunları ərəfəsində alınmış minlərlə radiostansiya, metal detektor, planşet, bort-kompyuter, videoqeydiyyat qurğusu və “İPatrol” maşınları, habelə “BMW” və “Mercedes” markalı 837 ədəd xidməti avtomobil IV İslam Həmrəyliyi Oyunları zamanı da istifadə ediləcək.**

YENİ MÜSAVAT
N 84 (6697) 22 aprel 2017

# Birləşmiş Ştatlar "guruldayır, amma yağmır..."

## Elçin Mirzəbəyli: "Tramp Amerikası sadəcə guruldamır, hətta..."

**ABŞ prezidenti Donald Tramp İran nüvə sazişinin bir daha nəzərdən keçirilməsinə əmr verib. Dövlət katibi Rex Tillerson keçmiş prezident Barak Obamanın dövründə əldə edilmiş İran nüvə sazişinin müzakirə ediləcəyini Konqresə bildirib.**

Məktubda İranın qarşısına qoyulmuş öhdəlikləri yerinə yetirdiyi qəbul edilsə də, dövlət katibi İranın "terrora dəstək" olduğu barədə narahatlığını vurğulayıb. ABŞ prezidenti Donald Tramp sələfi Barak Obamanın dövründə əldə edilən sazişi "tarixdə ən pis razılıq" adlandırıb.

"Prezident Donald Tramp İrana qarşı sanksiyaların ləğvinə dair sazişin nəzərdən keçirilməsinə əmr edib" deyə, Tillerson bildirib.

Dövlət katibi əlavə edib ki, İran "bir çox üsuldan və platformadan istifadə edərək hələ də terrora sponsorluq edən aparıcı dövlətlərdən biridir".

Qeyd edək ki, son illərdə Birləşmiş Ştatlar digər ölkələrə təzyiqlər etmək üçün bu cür yollardan, hədələrdən istifadə edir. Görünən odur ki, "ABŞ guruldayır, amma yağmır". Bu proses daha çox B.Obamanın dövründən etibarən başlayıb. İllərdir Rusiyaya qarşı sanksiyalar tətbiq edilsə də, Amerika Kremllə bağlı dünyanın gözlədiyi addımı atmadığı açıq görünür. İranla bağlı da bu fikirləri söyləmək olar. Son olaraq da, Şimali Koreya bu siyahıya qoşuldu. Sanki Birləşmiş Ştatlar müharibəyə başlamaqdan ehtiyat edir.



**Politoloq Elçin Mirzəbəyli** geosiyasətdə guruldamağın təzyiq metodlarından biri olduğunu hesab edir: "Bu "guruldama"nın arxasında nəhəng iqtisadi güc və hərbi qüdrət dayanırsa, o zaman bu təzyiq daha effektiv olur. Trampla Obamanı müqayisə etmək belə mümkün deyil. Həm xarakter, həm də təmsil etdikləri siyasi dairələrin metodları baxımından. ABŞ-ın Suriyadakı hərbi aviabazaya endirdiyi raket zərbələri isə sübuta yetirdi ki, Tramp Amerikası sadəcə guruldamır, hətta heç kimlə məsləhətləşmədən, heç kimi xəbərdar etmədən baltanı kökündən vurmağı da bacarır. İran və Şimali Koreya ABŞ-ın geosiyasi maraqlarını hərbi və iqtisadi güc yolu ilə təmin etmək strategiyasını seçən respublikaçılar üçün ənənəvi hədəflərdir. Şimali Koreya ilə bağlı məsələ və hərbi ritorikanın güclənməsinin ABŞ-ın Suriyadakı aviabazaya zərbə endirməsindən və Rusiyanın sözün əsil mənasında sarsılmasından sonraya təsadüf etməsi də maraqlı görünür. Daha doğrusu maraqlı bir mənzərə yaranır: Sanki ABŞ diqqəti Suriyadakı proseslərdən yayındırmaq və Rusiyanın şokdan çıxmasına imkan yaradır. Şimali Koreya ətrafında cərəyan edən hadisələr isə, sadəcə bu absurdlar ölkəsi ilə bağlı deyil. ABŞ qarşıdurmanı genişləşdirməklə, real nüvə təhlükəsi fonu yaratmaqla bölgədəki hərbi mövcudluğunu gücləndirmək istəyir. Bu isə həm də Çinin mövqelərinin zəifləməsinə xidmət edir. ABŞ-ın hədəfi Rusiya deyil. Çünki Vaşinqton Rusiyanın iddialarıyla imkanlarının üst-üstə düşmədiyini yaxşı bilir və Kremlin özünü zorlayaraq guruldamasını da növbətçi təbəssümlə izləyir. Tramp administrasiyasının əsas hədəflərindən biri nəhəng insan resurslarına, hərbi və iqtisadi gücə sahib olan Çindir. Çinin geri çəkilməsi, prosesləri müşahidə etməyə üstünlük verməsi isə sübuta yetirir ki, Pekin baş verənlərin mahiyyətini yaxşı başa düşür və klassik Çin siyasətinin fəlsəfəsinə uyğun olaraq, gözləməyə üstünlük verir. ABŞ üçün gərginliyin artması daha çox əhəmiyyət daşıyır, nəinki daha aktiv fazaya - əməliyyatlar müstəvisində keçməsi. Gərginlik artdıqca, bölgə dövlətlərinin, xüsusilə də Çinin qlobal proseslərdə iştirak etmək iddialarının üzərinə xətt çəkilir, Pekinin diqqəti sərhədləri yaxınlığında baş verə biləcək və ondan da yan keçməyəcək qarşıdurmaya yönəlir. Eyni zamanda Rusiyada sərhədləri yaxınlığında baş verənləri diqqətə almaq məcburiyyətində qalır".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** ABŞ-ın dövlətlərlə müharibə aparmaq kimi bir öhdəliyinin olmadığını qeyd etdi: "Amerika hələlik dünyada yeganə super dövlətdir. Amma özünə öhdəlik götürməyib ki, hər kəslə müharibə aparsın. Və buna heç ehtiyac da yoxdur. Vyetnamdan sonra Əfqanıstan və İraq işğal olundu. Nəticədə "Taliban" iqtidardan qovuldu, Səddam asıldı, narkotrafik və neft burğuları nəzarətə götürüldü, hər iki ölkədə ABŞ hakimiyyətə öz adamlarını gətirdi və bu torpaqlarda böyük xaos baş verdi. Məhz Amerika dərin dövlətinə də bu lazım idi. Guya onlar bilmirdi ki, Əfqanıstan və İraqda Amerika silahının gücü ilə belə demokratiya qurmaq mümkün olmayacaq? Çox gözəl bilirdilər. Vyetnama müdaxilə etdilər sonu nə oldu, bu ölkə kommunizmi seçdi. Yəni sözüm ondan ibarətdir ki, ABŞ hara hərbi müdaxilə edirsə, orada onun üçün əsas demokratiyanın, sivil dövlətin qurulması deyil, orada onun üçün əsas həmin ölkələrin təbii sərvətlərinə əl qoymaq, öz hərbi bazalarını yerləşdirmək, silah ticarəti, narkotrafikə nəzarət etmək və bütün bunların hesabına böyük xaos yaradıb prosesi idarə etmək. Amerikanın dərin dövləti bütün bunları çox gözəl bacarır. Yuxarıda qeyd etdiyim mənzərəni İraq, Əfqanıstan Suriyada biz çox gözəl görə bilərik. Əsədi heç vaxt amerikalılar devirmək istəməyib. Sadəcə hərdən bombalayacaqlar ki, dünyaya göstərsinlər, burda da əsas güc mərkəzi bizik. Şimali Koreyaya gəldikdə isə amerikalılar çox gözəl bilirlər ki Şimali Koreya rejimi heç kəsə raket atan deyil, sadəcə gənc diktator özünü göstərməklə məşğuldur. Və oraya müdaxilə edib Çini duyuq salmaq da istəmirlər. Çünki ABŞ nə qədər super güc olsa da, bir neçə cəbhədə vuruşmaq ona belə çətin olar. Və ən əsası kommunizm dağılandan sonra, Qərbin əsas düşməni İslamdır, daha doğrusu siyasal İslam. Ona görə hələlik Şimali Koreya, Çin öz növbəsini gözləsinlər".

❑ **Cavanşir ABBASLI**

# Gürcüstan proporsional seçki sisteminə keçir, bəs Azərbaycan?

## Qonşu ölkədə prezidentin xalq tərəfindən seçilməsinə də son qoyulacaq və tam parlament üsul-idarəsi bərqərar olacaq...

**Gürcüstan yeni Konstitusiya dəyişikliklərinə gedir. Yeni dəyişikliyə əsasən, ölkənin baş komandanı olmayacaq. Bunu jurnalistlərə açıqlamasında Gürcüstan prezidenti Georgi Marqvelaşvili söyləyib. O, yenidən prezidentin səlahiyyətlərinin azaldılması ilə razı olmadığını bildirib.**

"Biz konstitusiyanın yeni versiyası ilə tanış olduq. Bu konstitusiyaya əsasən prezidenti xalq yox, 300 seçilmiş seçəcək. Seçilən prezidentin isə 2013-cü ildə nəzərdə tutulan hüquqları da əlindən alınır. Ən təhlükəlisi də odur ki, ölkənin baş komandanı olmayacaq" - hazırkı prezident deyib. Digər nəzərdən tutulan ciddi dəyişiklik isə ölkədə majoritar seçki sisteminin ləğvi və tam proporsional seçki sisteminə keçiddir. Hazırda Gürcüstanda qarışıq (majoritar və proporsional) seçki sistemidir.




**Siyasi ekspert Şahin Cəfərli** Gürcüstanın tam olaraq proporsional seçki sisteminə keçməsinin demokratiyanı inkişaf etdirmək baxımdan əhəmiyyətli olacağını düşünür: "Çünki majoritar sistemin ləğvi demokratik inkişaf yolunda olan ölkələrdə siyasi partiyaların möhkəmlənməsi, cəmiyyətdə bir demokratik institut kimi onların rolunun artması baxımından əhəmiyyətlidir. Proporsional seçki sistemi eyni zamanda siyasi mədəniyyətin sürətli inkişafına da münbit zəmin yaradır. Məsələn, birmandatlı dairələr üzrə seçkilərdə adətən lokal xarakterli məsələlər, seçicilərin su, yol, torpaq və s. problemləri, bu istiqamətdə namizədlərin çox vaxt reallıqdan uzaq vədləri ön plana çıxdığı halda, proporsional sistemdə partiyaların ölkənin bütün problemlərinin həllinə dair fundamental baxışları, proqram və konsepsiyaları müzakirə mövzusu olur. Birmandatlı dairələrdə seçki mübarizəsi ayrı-ayrı namizədlərin savaşı şəklində cərəyan edirsə, vahid partiya siyahıları üzrə seçki mübarizəsi siyasi platformaların, iqtisadi konsepsiyaların yarışı, rəqabəti, partiyaların kölgə hökuməti mənsublarının intellektual mükalimələri, diskussiyaları şəklində cərəyan edir. Bundan başqa, partiyalar adətən majoritar dairələr üzrə yerlərdə nüfuzu, təsir gücü olan şəxslərin *(məsələn, konkret Gürcüstan nümunəsində rayonun keçmiş rəhbəri, bazar sahibi, pullu adamlar və s.)* namizədliyini irəli sürmək məcburiyyətində qalırlar. Proporsional sistemdə isə partiyaların lider heyəti ilə yanaşı, ölkədə az tanınan və ya heç tanınmayan mütəxəssislərin (iqtisadçılar, hüquqşünaslar və s.) adlarını namizədlər siyahısına salmaq mümkün olur. Nəticədə keyfiyyətli parlament formalaşır. Gürcüstanda prezidentin xalq tərəfindən seçilməsinə də son qoyulacaq və şəriksiz, tam parlament üsul-idarəsi bərqərar olacaq".

Qeyd edək ki, dünyada seçkilərin keçirilməsinin müxtəlif sistemləri tətbiq olunur. Azərbaycanda 2000-ci ilə qədər qarışıq seçki sistemi mövcud idi. 2000-ci ilin yayında Konstitusiya dəyişikliyi üçün referendum keçirildi və proporsional seçki sistemi tamamilə ləğv edildi və tam olaraq majoritar seçki sisteminə keçildi. Bir sıra ekspertlərin fikrincə, Azərbaycanda siyasi partiyaların əhəmiyyətinin azalması, zəifləməsinin səbəblərindən biri proporsional seçki sisteminin ləğvidir.

Proporsional seçki sistemi səslərin ayrı-ayrı şəxslərə deyil, partiyalara verilməsini nəzərdə tutur. Məsələn, 30% səs toplamış partiya parlamentdə yerlərin 30%-ni əldə edir. İlk dəfə olaraq 1889-cu ildə Belçikada tətbiq olunub. Bu sistemdə partiya və ya blokların qazandığı mandatların sayı onların namizədlərinə verilmiş səslərin sayına uyğun gəlir. Hazırda bu seçki sistemindən 60 ölkədə istifadə olunur. Proporsional sistem də nöqsanlardan azad deyildir. Məsələn, proporsional seçki sistemi hətta nisbətən kiçik partiyalar üçün də təmsilçiliyi təmin edir. Bu isə parlamentli və ya qarışıq idarəçilik formasında hökumətin formalaşdırılması, sonradan isə onun fəaliyyəti sahəsində mürəkkəb problemlər yaradır. Problemlər əsasən heç bir partiyanın və ya partiyalar koalisiyasının parlamentdə möhkəm mütləq əksəriyyətə malik olmadıqları vəziyyətdə meydana çıxır, proporsional sistem isə məhz belə vəziyyətin alınmasına zəmin yaradır.

Bu, həmin sistemin nöqsanlarından yalnız biridir. Bu sistem parlamentdə ədavətdə olan və rəqabət aparan çoxlu sayda partiyaların olmasına şərait yaradır ki, bu da koalision çoxluğun formalaşdırılması işini çətinləşdirir. Türkiyədə 2015-ci il 1 iyun parlament seçkilərindən sonra məhz belə bir vəziyyət yaranmışdı. Hətta bu cür koalisiya yarandıqda belə onun sabitliyinə ümid az olur. Nəticədə hökumətin effektivliyi kəskin şəkildə aşağı düşür.

Yəqin ki, Azərbaycan da gənc dövlətlərdən biri kimi öz seçki qanunvericiliyini gec-tez təkmilləşdrməli olacaq. Ən azından bu, zamanın tələbi kimi görünür.

❑ **Etibar SEYİDAĞA**



**İki gün sonra işğalçı Ermənistan və dünya erməni lobbisi saxta erməni soyqırım iddiasının növbəti - 102-ci ildönümünü qeyd edəcək. Sirr deyil ki, ermənilər Türkiyəyə qarşı bir əsrdən çoxdur uydurduqları bu sərsəm iddia vasitəsilə dünyanın gözündə qardaş ölkəyə qarşı ərazi iddialarına bəraət qazandırmağa çalışırlar. Ermənilərin başqa bir hədəfi isə əlbəttə ki, bu yolla Dağlıq Qarabağın və daha 7 rayonumuzun işğalına haqq qazandırmaq, Azərbaycan torpaqları hesabına Ermənistan adlı saxta dövlətin ərazisini daha da genişləndirməkdir.**



# Ədalətsiz vasitəçilər "triosu": Qarabağ məsələsi "üçlüyün" girovluğundan çıxacaqmı?

## Azərbaycanın 1 nömrəli müttəfiqi - Azərbaycan ordusu, müdafiə naziri cəbhədə "döyüşə hazır ol!" əmrini verdi; **rusiyalı hərbi ekspert düşməni məyus etdi:** "KTMT-nin Qarabağ öhdəliyi yoxdur"; Ermənistanın müdafiə naziri isə Qarabağda ölməyə erməni axtarır...

**Əfsuslar olsun ki, xristian amili və başqa bu kimi səbəblər üzündən beynəlxalq birliyin əhəmiyyətli bir kəsimi erməni yalanlarına uyub. Söhbət öncəliklə bir sıra xristian ölkələrindən gedir. Təsadüfi deyil ki, qondarma genosidi tanıyan dövlətlərin mütləq əksəriyyəti də məhz xristian dünyasına aiddir.**

Ən acınacaqlısı odur ki, uydurma məsələni tanıyan dövlətlərdən ikisi - Fransa və Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrləri, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyası daşıyan ölkələrdir. Üçüncü vasitəçi dövlət - ABŞ isə qondarma soyqırımı tanımasa da, işğalçı Ermənistana simpatiyasını da gizlətmir. Həmçinin hər üç dövlətdə Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndəliyinin fəaliyyət göstərməsi də öz-özlüyündə az şey demir.

*****

Azərbaycan bax, illərdir belə bir ədalətsiz vasitəçilər "triosu" ilə üz-üzədir. Yəni biz nə şimaldan ədalət uma bilirik, nə də Qərbə və okeanın o tayına bel bağlaya bilirik. Kaş ki, zamanında qardaş və müsəlman Türkiyənin vasitəçi üçlükdən uzaqlaşdırılmasına, onu ermənipərəst Fransanın əvəzləməsinə imkan verməzdik. Bunu şərt kimi qoyaydıq ki, vasitəçilikdə heç olmasa, nisbi balans saxlanaydı.

Əfsus şans əldən buraxıldı. İndiki vəziyyətdə isə yeganə yolumuz öz hərbi qüdrətimizi və silahlı qüvvələrimizin döyüş qabiliyyətini durmadan artırmaq, qardaş Türkiyə və Pakistan başda olmaqla, dost-müttəfiq ölkələrlə əlaqələrimizi daima daha yüksək səviyyəyə qaldırmaqdır.

Ancaq bir Qarabağ qazisinin tam haqlı olaraq dediyi kimi, Azərbaycanın bu məsələdə ən böyük müttəfiqi - onun öz ordusudur. Ordu, ordu, yenə də ordu! Hamımız bu 1 nömrəli müttəfiqimizin - silahlı qüvvələrimizin günü-gündən qüdrətlənməsi, ordumuzun döyüş qabiliyyətinin daha da qaldırılması üçün əlimizdən gələni etməliyik - harda yaşamağımızdan, Azərbaycanda və ya onun xaricində olmağımızdan asılı olmayaraq. Bir az da bu işdə xain qonşularımızın təcrübəsindən də istifadə eləməliyik.

*****

**Hərbi və döyüş qabiliyyətimizin artırılmasında söz yox ki, vaxtaşırı keçirilən və döyüş şəraitinə maksimum yaxınlaşdırılmış böyük təlimlərin də özünəməxsus yeri var.** Təbii ki, düşmən təkbətək qarşidurmada, hərb meydanında Azərbaycanla bacara bilmıyəcəyinin fərqindədir. Odur ki, getdikcə Rusiyaya daha çox sığınır, onun Ermənistanda möhkəmlənməklə bağlı yeni-yeni şərtlərini qəbul edir.

Erməni tərəfi indi də deyəsən, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) baş katibi postuna rotasiya qaydasında erməni generalın gətirilməsinə müəyyən ümidlər bağlayır. Lakin əksər siyasi və hərbi ekspertlər bu ümidlərin əsassız olduğu qənaətindədir.

"Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı bir ölkənin səyləri ilə yaradılmış müdafiə strukturudur". Bunu "168 Jam" qəzetinə müsahibəsində rusiyalı hərbi ekspert Pavel Felgenhauer söyləyib (Axar.az). O, KTMT-yə üzv ölkələrin Rusiya ilə sıx əlaqədə olduğunu bildirərək, daha sonra deyib: "Bu təşkilata üzv ölkələrin ümumi hədəfləri yoxdur. Burada Belarus və Ermənistanı və yaxud Qazaxıstan və Ermənistanı az şey bağlayır. Bu ölkələr həm də Azərbaycanla dərin əlaqələrə malikdirlər. Bu səbəb ucbatından onlar KTMT-nin baş katibi vəzifəsinə Ermənistan nümayəndəsinin təyin edilməsindən qaçmağa və ya Bordyujanın Qarabağla bağlı açıqlamasını danmağa çalışırdılar. Ona görə ki, bu ölkələrə Qarabağ konfliktinə müdaxilə, Qarabağa və ya Ermənistana Azərbaycanla savaşmaq üçün ordu göndərmək lazım deyil. KTMT-də belə problemlər olmaya da bilər. Çünki Qarabağ Ermənistan deyil və KTMT-nin onun qarşısında heç bir öhdəliyi yoxdur".

**Ekspertin sözlərinə görə, Ermənistan-Azərbaycan sərhədində situasiyanın gərginləşdiyi vaxtda bu məsələ ilə bağlı konsensus olmayacaq**. "Yeni təyin olunmuş baş katib isə Ermənistanın yox, KTMT-nin gündəmini idarə etmək öhdəliyini götürüb. Ermənistan bu təyinatdan yalnız təşkilatın strukturunda bir az yüksək vəzifə almaqdan başqa heç nə əldə etməyəcək. Bu, sadəcə protokol vəzifədir. Qərarı Rusiya tərəfi öz tərəfdaşlarının iştirakı ilə qəbul edir. Üstəlik, bu vəzifə KTMT-dən istifadə edərək, Ermənistanın təhlükəsizlik problemlərini daha eşidilən etmək, onları Ermənistanın nöqteyi-nəzərindən təqdim etmək imkanı da yaradacaq. Bu qadağan edilməyib və Ermənistan nümayəndəsi bunları edə bilər. Belarus və Qazaxıstanın Ermənistana qarşı mövqeyini nəzərə alsaq, bunun necə nəticələr verəcəyini söyləmək çətindir", - deyə hərbi analitik əlavə edib.

*****

Yəni işğalçı ölkəni KTMT ümidləri də əslində bir illüziyadır. Düşmən ölkə beləcə, öz hərbi xarakterli problemlərini KTMT vasitəsilə qismən həll eləmək niyyəti güdsə də, reallıqlar bunu istisna edir. Həmin problemlər arasında orduya çağırışçı problemi öndə gəlir.

"Ermənistan hakimiyyəti və generalları etiraf etməsələr də, son illərdə cəbhə bölgəsində üzləşdikləri itkilərin yerini doldurmaqda çətinlik çəkirlər". Ermənistan Müdafiə Nazirliyinin ön cəbhədəki əsgər çatışmazlığının qarşısını almaq üçün "10 min dollar ölüm" təklifini şərh edən politoloq Elxan Şahinoğlu bu qənaətdədir.

**Siyasi şərhçi bunun obyektiv səbəblərinin olduğunu düşünür:** "Birincisi, gənclər Ermənistanı tərk edirlər, onlar Dağlıq Qarabağda ölməmək üçün ya Rusiyaya işləməyə gedirlər, ya da Qərb dövlətlərinə mühacirət edirlər. İkincisi, Ermənistanın əhalisi onsuz da azalır, Azərbaycanın isə əksinə artır, yaxınlarda sayımız 10 milyona çatacaq. Bu tendensiya Ermənistanı narahat edir, döyüşməyə adam tapmaqda çətinlik çəkirlər. Ermənistan Müdafiə naziri Viqen Sərkisyan bu vəziyyətdən çıxış yolu kimi yeni ideya irəli sürüb: "Könüllü surətdə döyüş bölgələrində 3 il hərbi xidmət keçən hər gəncə xidməti bitirdikdən sonra 10 min dollar ödənəcək". Başqa sözlə, Ermənistanın müdafiə naziri gənclərə pulsuz ölməməyi təklif edir. Bu ideya yaxınlarda parlamentdə qanun şəklinə gələcək. Görək Ermənistanda 10 min dollara nə qədər gənc ölümə hazır olacaq?"

**Politoloq bir məqama da diqqət yetirməyi lazım bilir**: "Azərbaycanın insani potensialı kifayət qədərdir, döyüş bölgəsində xidmət problemimiz yoxdur. Aprel döyüşləri də göstərdi ki, az qala bütün əhali döyüşə atılmaq istəyir".

Yada salaq ki, ötən il Ermənistan parlamenti öldürülən erməni əsgərlərinin ailələrinə dövlət səviyyəsində maddi yardım göstərmək üçün əhalinin cibinə girmək anlamı verən qanun qəbul edib. Həmin qanuna görə, hər bir işləyən ermənінin gəlirindən ayda 1000 dram yuxarıda deyilən məqsəd üçün tutulacaq. Bütün bunlar bir daha işğalçı ölkənin Azərbaycanla açıq savaşa, müharibəyə hazır olmadığını, buna canlı və başqa resursların yetmədiyini göstərir.

*****

Yazı hazırlanarkən məlum oldu ki, Müdafiə Nazirliyinin rəhbər heyəti, birlik, birləşmə komandirləri, onların müavinləri, xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri, digər məsul zabitlərin iştirakı ilə cəbhə bölgəsində döyüş və mənəvi-psixoloji hazırlıq, eləcə də təlimlərin yekunlarına həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, kollegiya iclasında məsul şəxslərin məruzələri dinlənilib. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov "Silahlı Qüvvələrin 2017-ci qış tədris dövrünün birinci rübündə xidməti döyüş fəaliyyətinin nəticələri" mövzusunda məruzə ilə çıxış edib.

Son təlimlərin nəticələrini də təhlil edən nazir bildirib ki, Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən müxtəlif poliqonlarda keçirilən təlimlərdə qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirilib. Şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığını xüsusi qeyd edən müdafiə naziri təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

**Cəbhəboyu zonada mövcud vəziyyət barədə danışan nazir hər an aktiv döyüşlərə hazır olmaq, düşmənə rahatlıq verməmək, onun fəaliyyətini daim nəzarətdə saxlamaq, istənilən hərəkətlərinin qarşısını qabaqcadan qətiyyətlə almaq və ona maksimum ciddi zərər vurmaq məqsədilə ön xətdə yerləşən birləşmə komandirlərinə konkret tapşırıqlar verib. İclasının sonunda müzakirə olunan məsələlərlə bağlı qərar qəbul olunub.**

YENİ MÜSAVAT
N 84 (6698) 22 aprel 2017

# Hökumətin ixrac potensialının artırılması təşəbbüsləri bəhrəsini nə zaman verəcək?

## "Tezliklə kənara xammaldan başqa heç nə çıxarıb, sata bilməyəcəyik; ilk növbədə daxili bazarın qayğısına qalmaq lazımdır"

**Azərbaycan iqtisadiyyatında Yevlax müşavirəsi mərhələsi yeni bir iqtisadi strategiyanın tətbiqinə başlanılmasının ölkə rəhbərliyi səviyyəsində təsdiqi oldu. Prezident İlham Əliyev qeyri-neft sektorunda ixracatın artırılmasının vacibliyini vurğulayaraq, dünyada bir "Made in Azerbaijan" brendinin yaradılmasının vaxtının çatdığını bildirdi: "Made in Azerbaijan" brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Artıq bu brend bu gün dünyada şöhrət qazanır. Mən artıq qeyd etmişəm, kreditlər verilir, fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Texnika alınır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir. Bütün bunlar qeyri-neft sektorumuzu canlandırdı. Ancaq sahibkarlara əlavə dəstək verilməlidir ki, onlar artıq öz məhsullarını xarici bazarlara çıxarsınlar. Çünki bu, onlara da, dövlətə də lazımdır. Bu, ölkəmizə valyuta gətirir. Ona görə, biz bu sərgilərdə iştirakımızı genişləndirməyə başladıq. Xarici ölkələrə bir neçə ixrac missiyası ezam edilmişdir. Bu missiyaların da çox böyük faydası var. Qərara gəldik ki, bir neçə ölkədə Azərbaycanın ticarət evlərini yaradaq və biz artıq buna yaxınlaşırıq. Yəni dövlət tərəfindən atılmış bütün bu addımlar əlbəttə ki, sahibkarlar üçün yeni imkanlar yaradır".**

Prezidentin bu açıqlamaları ölkə miqyasında pozitiv əhval-ruhiyyə yaratmaqla yanaşı iqtisadçılar tərəfindən də müsbət qarşılandı.

Ölkə başçısı İlham Əliyevin Yevlaxda keçirilən Respublika müşavirəsində Azərbaycanın ixrac potensialının artırılması haqqında fikirlərini şərh edərkən **iqtisadçı-ekspert Pərviz Heydərov** da vurğuladı ki, neftin qiymətinin enməsindən sonra bu tendensiyanın başlaması məntiqə uyğundur:

"Dövlət başçısının sədrliyi ilə Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının I respublika müşavirəsi zamanı təkrar qeyd olundu ki, hökumətin fəaliyyətində əsas istiqamət daxili tələbatı yerli istehsal hesabına ödəmək, ixrac potensialını artırmaq təşkil edir.

Prezident əlavə etdi ki, ümumiyyətlə, növbəti illərdə ixrac yönümlü müəssisələrin yaradılmasına daha böyük diqqət göstərmək lazımdır ki, bundan sonra istənilən müəssisəni yaradarkən ilk növbədə həm daxili tələbat ödəmək, həm də ixrac imkanını genişləndirmək əsas məqsəd olaraq güdülməlidir. 2014-cü ilin yayından bəri neftin qiymətinin enməsindən Azərbaycan çox əziyyət çəkdi. Dövlət gəlirləri xam neft satışından əldə olunduğundan 4 dəfədən çox azaldı, makroiqtisadi sabitliyin əldən getməsi təhlükəsi yarandı, valyuta ehtiyatları əhəmiyyətli şəkildə itkiyə məruz qaldı. İş bundadır ki, enerji resurslarının dünya bazar qiymətləri enməsəydi də, ölkəni qarşıda post-neft dövrü gözlədiyi məlum məsələ idi. Sadəcə, bu, bir neçə il sonra baş verəcəkdi. Qlobal miqyasda xammal məhsullarının ucuzlaşması isə vəziyyəti tez yetişdirdi. Düzdür, neftin bu dəfəki qiymət enişindən nisbətən sığortalandıq".



**İqtisadçının fikrincə, qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisinin artması ilə bərabər, onun ümumi ixracda payı da yüksəlməsə getdikcə, iqtisadiyyatımız çox itirəcəyik:** "Odur ki, ölkədə istehsal olunan qeyri-neft məhsulları ixracını həm kəmiyyət, həm də çeşid baxımından genişləndirmək istiqamətində həyata keçirilən tədbirlər keçən ildən daha da sürətləndirildi. Prezident tərəfindən bir sıra mühüm dövlət sənədlərinin imzalanması ilə hökumətə verilən müvafiq tapşırıqlar sayəsində stimullaşdırıcı tədbirlər dövlət siyasətinə çevrildi. Ölkənin post-neft dövrünə gözlənildiyindən daha tez daxil olması səbəbindən iqtisadiyyatın yeni ixrac imkanlarının araşdırılması və bu sahədə mövcud potensialdan tam istifadə edilməsi məqsədilə son bir ilin ərzində mühüm addımlar atıldı; birincisi, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi və ixrac missiyalarının təşkili olmaqla, ikincisi, "azexport.az" internet portalının yaradılması, üçüncüsü isə ölkənin xaricdəki səfirlik və konsulluqlarında ticarət nümayəndəliklərinin təsis və təyin edilməsi ilə çox böyük işlər görülüb. Bəli, Azərbaycanın böyük ixrac potensialı vardır. Lakin bunu reallaşdırmaq lazımdır. Burada isə bir cəhət vardır. O da bundan ibarətdir ki, ölkənin qeyri-neft məhsulları ixracı ilə bağlı həmişə bir həqiqəti nəzərə almaq lazım gəldiyini qeyd etmişəm və yenə də qeyd edirəm ki, biz, bu gün nə qədər çox çalışsaq da, müvafiq olaraq zəruri investisiyalar yatırsaq da, kənara hələlik xammaldan başqa heç nə çıxarıb, sata bilməyəcəyik. Ən azı, yaxın 20-25 il ərzində..."

**Pərviz Heydərovun sözlərinə görə, istənilən halda bazar amili mühüm şərtdir:** "Mən həmişə ilk növbədə daxili bazarın qayğısına qalmaq lazım gəldiyini vurğulamışam və yenə də bu fikirdəyəm. İlk növbədə yerli bazarı idxal məhsullarının asılılığından qurtarmalıyıq. Bəli, elə məhsullar var ki, dünya bazarlarında onlara böyük ehtiyac var. Ancaq bunlar hamısı xammal məhsullarıdır. Odur ki, hesab edirəm, ixracımız hələ ki sırf xammal məhsulları üzərində qurula bilər. Daxili bazarı isə bacardıqca öz məhsullarımızla təmin etməliyik. Bunun üçün idxalı mütləq məhdudlaşdırmalıyıq. Əvvəla, buna inzibati yolla nail olmaq lazımdır. Yəni yerli istehsalı himayə etməklə... Demirəm ki, tələbatımızı 40-45%-ni ödəyə bildiyimiz məhsulların da xaricdən gətirilməsinə qadağan qoyaq. Ancaq hansı məhsul növü üzrəsə, daxili tələbatı 75-80%-dən çox ödəyə biliriksə, o məhsulların kənardan gətirilməsi məhdudlaşdırılmalıdır. Ümumiyyətlə, nəzərə almaq vacibdir ki, istənilən məhsul növü üzrə alıcı kütləsi əslində hər yerdə var. Sadəcə, hər şey alıcılıq qabiliyyətinə bağlıdır. Bu mənada, vətəndaşlarımız maddi cəhətdən imkan əldə etdikcə, təbii ki, daha çox keyfiyyətli və geniş çeşiddə mallara tələbat nümayiş etdirəcəklər. Bu isə avtomatik olaraq istehsalı həm kəmiyyətcə, həm də keyfiyyətcə daima yüksəltməyi tələb edəcək. Bu, elə bir prosesdir ki, sonda istər-istəməz rəqabət qabiliyyətli məhsul istehsalı ilə nəticələnəcək. Artıq bu mərhələdə isə ixrac da reallığa çevriləcək və o da genişlənəcək".

**İqtisadçı-ekspert Vüqar Bayramov** isə vurğuladı ki, qeyri-neft istehsalının artırılması hər zaman hədəfdir: "2017-ci ilin ilk rübünün yekunlarını qiymətləndirən zaman əslində biz, 2014-cü ildən başlayaraq aparılan islahatları, tədbirlərin əhəmiyyətini qeyd etməliyik. Çünki Azərbaycan post-neft dövrünün başlanmasını elan edən ilk ölkələrdən biri oldu. 2014-cü ilin sonlarında cənab prezident tərəfindən artıq post-neft dövrünün başlandığı bildirildi. Bundan sonra ixracın çoxaldılması idxalın azaldılması başladı. 2014-cü ilin sonlarında neftin bazar qiymətinin yenidən artacağı barədə fikirlər səsləndirildi. Amma Azərbaycan artıq neftin dünya bazarı qiymətlərinə və mövcud qiymətlərə uyğun transformasiya olması istiqamətində mövcud siyasətin aparılması ilə bağlı mövqeyini nümayiş etdirdi. Bununla ixracın stimullaşdırılması üçün atılan addımlar, xüsusilə ixraca subsidiyanın verilməsi öz təsirlərini göstərməyə başladı. Azərbaycan ixraca subsidiya təklif edən az sayda MDB ölkələrindən biridir. Bu o deməkdir ki, sahibkar ixrac etdiyi məhsulun növünə uyğun dövlət büdcəsindən subsidiya alır".

❑ N.LİFTİYEVA

# Yollardakı sarı zolaqlarda hərəkət nə zamandan qadağan olunacaq...

## Vaqif Əsədov: "Yarışlar başlayana qədər sarı zolaqla hərəkət etmək sərbəstdir"

**Bakının beynəlxalq idman yarışlarına ev sahibliyi etməsinə sayıl günlər qalır. Bu məqsədlə artıq paytaxt yollarında da hazırlıq işlərinə başlanılıb. Bir neçə istiqamətdə magistral yollara sarı zolaqlar çəkilib. Bu zolaqlar məhz idman yarışlarının keçiriləcəyi ərəfədə yarış iştirakçılarını daşıyan avtomobillərin hərəkəti üçün nəzərdə tutulsa da, məlumatsız olan bəzi sürücülərdə narahatlıq yaradıb. Bəziləri bu yollarda hərəkət etməyə ehtiyat edirlər. Sosial şəbəkələrdə ən çox səslənən suallardan biri də hansı tarixdən etibarən sarı zolaqda hərəkət etməyin qadağan olunmasıdır. Qeyd edək ki, I Avropa Oyunları ərəfəsində sarı zolaqla hərəkət edən sürücülər 40 manat məbləğində cərimə olunurdu.**

Musavat.com olaraq hazırda sarı zolaqda hərəkətin qadağan olunub-olunmaması ilə bağlı Bakı Şəhər Baş Dövlət **Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov**la əlaqə saxladıq.




O bildirdi ki, hazırda sürücülər üçün narahatlığa heç bir əsas yoxdur. Yarışların başlanılması ilə bağlı elan verildiyi gündən həmin zolaqlara daxil olan sürücülərlə bağlı inzibati protokollar tərtib ediləcək: "Hazırda isə heç bir cərimə tətbiq olunmur. Yarışlar başlayana qədər sarı zolaqla hərəkət etmək sərbəstdir".

**V.Əsədov bildirdi ki, həmin sarı zolaqlar yalnız idman oyunlarının keçirilməsi üçün nəzərdə tutulub:** "Bu yollar idman oyunlarının keçirildiyi əraziləri birləşdirən və tamaşaçıları, qonaqları, idmançıları həmin istiqamətlərdə aparan avtomobil sürücülərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır. Bu ərəfədə həmin zolağa daxil olmaq inzibati xəta tərkibi yaradır. Bunu edənlər məsuliyyətə cəlb olunacaq. Biz I Avropa Oyunları ərəfəsində bunu təcrübədən keçirdik. Mən inanıram ki, növbəti idman oyunları ərəfəsində də bu təcrübədən istifadə edəcəyik. İstər paytaxt sakinləri, istər bölgələrdən gələnlər bütün hərəkət iştirakçıları ilə vahid komanda yaradıb bu beynəlxalq tədbiri də yüksək səviyyədə başa vurmağa bizə kömək edəcəklər".

❑ NƏRGİZ

YENİ MÜSAVAT
N 84 (6698) 22 aprel 2017

# Deputatlar "Ovçular evi" ərazisindəki qalmaqaldan danışdılar

## "Orada evlər millət vəkillər üçün yox, Milli Məclisin işçiləri üçün tikilirdi"

**"Azərbaycan prezidenti İlham Əliyevin tapşırığına əsasən, Bakı şəhər İcra Hakimiyyəti Yasamal rayonu, Mətbuat prospektində yerləşən "Ovçular evi" ərazisində mədəniyyət və istirahət parkı salacaq. Həmin ərazidə heç bir tikinti işləri aparılmayacaq". Bunu Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev bildirib. O, parkın yaya qədər istifadəyə verilməsinin nəzərdə tutulduğunu qeyd edib.**

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyevin göstərişi ilə ərazidə yaşayış binasının tikintisi dayandırılıb. Buna səbəb tikinti aparan şirkət tərəfindən ərazidəki 54 ağacın qanunsuz olaraq kəsilməsi və ərazidəki yaşıllığın tamamilə məhv edilməsidir. Xatırladaq ki, bir müddət öncə həmin ərazidə "Ovçular evi"nin sökülməsi, ağacların qırılması və yerində çoxmərtəbəli yaşayış binasının tikilməsi xəbəri cəmiyyətdə ciddi narazılıqlara səbəb olmuşdu. KİV-də yer alan xəbərlərə görə, orada Milli Məclisin üzvləri üçün yaşayış binası tikiləcəkmiş.

Lakin prezidentin göstərişi ilə binanın tikintisi dayandırıldı. Tikinti yerindəki məlumat lövhəsinə görə, orada "Böyük Plaza" yaşayış və ticarət mərkəzinin tikintisi aparılırdı. Tikintini həyata keçirən şirkət mövcud qanunları pozaraq ərazidə 54 ağacı qanunsuz olaraq ağır texnika ilə məhv edib.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf mühitin mühafizəsi departamentinin sektor müdiri Raquf Mirzəyev** mətbuata açıqlamasında bildirib ki, orada yaşıllıqların məhv edilməsi ilə bağlı nazirliyin "qaynar xətti"nə məlumat daxil olub. Nazirliyin əməkdaşları əraziyə baxış keçirib və müəyyən edilib ki, 27 ədəd müxtəlif növ ağaca bioloji ziyan yetirilib, 12-44 sm diametrli müxtəlif ölçülü, içərisində şam, tut, yapon əzgili və s. olan 52 ədəd ağac məhv edilib.



"Yeni Müsavat" olaraq bu məsələni Milli Məclisin deputatları ilə müzakirə etməyə çalışdıq.

**Deputat Fazil Mustafa** orada Milli Məclisin üzvlərinə ev tikilməsi ilə bağlı məlumatın həqiqəti əks etdirmədiyini bildirdi və dövlət başçısının qərarını dəstəklədiyini ifadə etdi: "Mən bildiyim qədər o evlər deputatlar üçün yox, Milli Məclisin işçiləri üçün nəzərdə tutulmuşdu. Çünki bildiyim qədər deputatlar üçün ayrıca mənzil tikintisi nəzərdə tutulmayıb. Ancaq belə bir məsələ prezident tərəfindən haqlı narazılıqla qarşılandı. Çünki belə vəhşi üsullarla yaşıllığın məhv edilməsi yolverilməzdir. Buranın park olmasına da mən normal yanaşıram. Təbii ki, burada mənzil tikmək istəyən sahibkarın da zərəri müəyyən dərəcədə kompensasiya edilməlidir. Hesab edirəm ki, buranın parka çevrilməsi ən məqbul çıxış yoludur. Bakının yaşıllığa çox böyük ehtiyacı var. Bu şəkildə yaşıllıqları da qorumaq mümkündür".

**Deputat Fərəc Quliyev** də bu qərarı müsbət qiymətləndirdi: "Milli Məclisin deputatları üçün ev tikilməsi söhbəti yoxdur. Orada bir bina və başqa bir obyekt tikilməli idi. Ona görə də ağacları kəsmişdilər və tikinti aparılacaqdı. Mən bir müddət əvvəl də Milli Məclisdə məsələ qaldırmışdım. Yasamal rayonu ərazisində əvvəl də 40-a yaxın ağac kəsilmişdi, ATV-də bununla bağlı veriliş yayımlanmışdı. Mən də bununla bağlı Milli Məclisdə məsələ qaldırmışdım, etiraz etmişdim. İndi də belə bir hadisə baş verib və prezident haqlı olaraq o tikintini dayandırıb, onun yerində parkın salınması ilə bağlı qərar verib. Kim bina tikmək istəyirsə, mikrorayon salmaq istəyirsə, bunu şəhərin kənarında etsin. Bizim böyük "İpək yolu" layihəmiz var. O yol boyu şəhərlər, qəsəbələr salsınlar. Qoy insanlar da bu infrastrukturdan istifadə etsin. Bakıda harada bir boş yer görürlərsə, uşaq istirahət meydançası yaratmaq əvəzinə, uşaq bağçası , park tikmək əvəzinə bina tikirlər. Bu doğru olmayan bir addım idi. Cənab prezidentin reaksiyası alqışlanmalıdır. Mən hesab edirəm ki, bu məsələlərə çox ciddi baxılmalıdır. Ancaq məlum olan bir məsələ odur ki, orada deputatlar üçün ev tikilmirdi".

❑ **Nərgiz LİFTİYEVA**



# "İçkini atmağım dinlə bağlı olmayıb"

## Səlim Babullaoğlu: "Həm oruc tuturam, həm namaz qılıram"

**Tanınmış şair-tərcüməçi Səlim Babullaoğlu ilə bağlı maraqlı məlumat əldə etmişik. Məlumata görə, zamanında həm spirtli içki, həm də siqaret istifadəçisi olan şair-tərcüməçi son vaxtlar bu zərərli vərdişlərdən imtina edərək ibadətə başlayıb.**

Məlumatın doğru olub-olmadığını aydınlaşdırmaq üçün Səlim Babullaoğlu ilə əlaqə saxladıq. Şair-tərcüməçi zərərli vərdişlərindən imtina etməsinin dinlə bağlı olmadığını bildirdi: "İçkini atmağım dinlə bağlı olmayıb. Sadəcə olaraq bir gün yetişdi və mən başa düşdüm ki, içki nə stressi götürür, nə rahatlıq gətirir. Əksinə, baş ağrısı, halsızlıq gətirir və sairə. Bu baxımdan mən sırf tibbi baxımdan hesab etdim ki, həm də həkimlər belə hesab etdilər ki, mən içməsəm daha yaxşı olar".

**Səlim Babullaoğlu artıq 20 ildir ki, namazla məşğul olduğunu dedi:** "Həm oruc tuturam, həm də namaz qılıram. Ana və ata tərəfdən də babalarım, nənələrim ibadət edən adamlar olub".

*"Hansı məzhəbə quluq edirsiz"* sualımıza isə şair-tərcüməçi bu cür cavab verdi: "Allahın məzhəbinə. Mən şiə-sünni ayrı-seçkiliyinin qəti əleyhinəyəm. Çünki İslam dini bölüşdürücü deyil, birləşdirici dindir. Mən özümü nə sünni, nə də şiə hesab edirəm, sadəcə müsəlmanam.

Mən içki içənlərin əleyhinə deyiləm. Kimsə içki içmək istəyirsə içsin, siqaret çəkmək istəyirsə çəksin. Zatən bunun üçün heç bir nə inzibati qadağa yoxdur. Bəli, din, Qurani-Kərim deyir ki, içməyin, amma din deyir deyə polis qadağa qoymur ki, heç kim içməsin. Mən sadəcə hesab edirəm ki, tibbi-nöqteyi nəzərdən xüsusən siqaret, o cümlədən içki insan orqanizminə ziyandır, insanı başdan aparır. Əgər biz ölkədə cinayətkarlığın, faciələrin statistikasını aparmalı olsaq, görərik ki, bunların əksəriyyəti içki zəminində baş verir. Ona görə də adamlar içməsə daha yaxşı olar. Amma mən çoxlu sayda insan tanıyıram ki, onlar içməyi də, özlərini aparmağı da bacarırlar. Təəssüf ki, hamı belə deyil".

❑ **Xalidə GƏRAY**

# Sosial evlərin tikintisi sürətlənib

## Artıq 16 yaşayış binasının tikintisinə başlanılıb, aprel ayı ərzində daha 7 binanın tikintisi start götürəcək

**Bir neçə gündən sonra güzəştli mənzilləri almaq üçün müraciətlər qəbul olunacaq. İctimaiyyətdə Yasamal rayonu ərazisində hazırda tikintisi davam etdirilən bu sosial evlərə maraq olduqca yüksəkdir. Bunu məlumatlandırma mərkəzlərinə müraciətlərin çoxluğundan və sosial şəbəkələrdəki fikirlərdən də görmək olar.**

May ayından etibarən artıq sosial mənzil almaq istəyənlər Bakıda 1, 3 və 5 saylı "ASAN Xidmət"lərə və eləcə də Sumqayıt "ASAN Xidmət"ə müraciət edə bilərlər. Müraciət sistemi 2 mərhələli olacaq. Mayın 1-dən başlanan 1-ci mərhələdə qeydiyyat prosesi həyata keçiriləcək. Daha sonra sosial ev almaq hüququna malik olan və qeydiyyatdan keçənlər sosial ev almaq üçün müraciətə dəvət ediləcəklər.

Bəs hazırda sosial mənzillərin tikintisi nə yerdədir? Məsələ ilə bağlı məlumat öyrənmək üçün mənzillərin tikildiyi əraziyə yollandıq. Müşahidə etdik ki, burada qızğın iş aparılır. Fəhlələrlə söhbətimiz zamanı onlar bildirdilər ki, dayanmadan çalışırlar. Onlar bu gedişlə ilk mənzillərin gələn ilin yay ayında hazır olacağını söylədilər. Elə biz özümüz də bunun əyani şahidi olduq ki, ərazidə texnikalar çalışır, ustalar qızğın işlə məşğuldurlar.

**Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) mətbuat xidmətindən də "Yeni Müsavat"a bildirdilər ki, agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin tikintisi sürətlə davam etdirilir:** "Ümumilikdə qanunvericilikdə nəzərdə tutulmuş dövlət ekspertiza və tender prosedurları başa çatdırılaraq artıq 16 yaşayış binasının tikintisinə və elektrik xətlərinin çəkilməsinə başlanılıb. Aprel ayı ərzində daha 7 binanın tikintisi, su və kanalizasiya sisteminin qurulması işləri ilə əlaqədar tender prosedurları başa çatdırılacaq və dərhal tikintisinə başlanılacaq. Ümumi sahəsi 11,6 hektar təşkil edən Yasamal Yaşayış Kompleksi 29 çoxmənzilli yaşayış binasından ibarət olacaq. Bunlardan 12-si birbloklu 12 mərtəbəli, 17-si isə ikibloklu 9 mərtəbəli olacaq. Kompleksin tikintisi başa çatdıqdan sonra ümumilikdə 1843 ailəni yeni mənzillə təmin etmək imkanı yaradılacaq. Bütün mənzillər tam təmirli vəziyyətdə və mətbəx mebeli ilə təchiz olunmuş şəkildə vətəndaşlara təklif olunacaq. Eyni zamanda ərazidə 960 yerlik ümumtəhsil məktəbi ilə yanaşı, 240 yerlik uşaq bağçası, ticarət mərkəzi, habelə müvafiq ictimai iaşə, məişət və digər xidmət obyektlərinin tikilərək istifadəyə verilməsi nəzərdə tutulur".





**MİDA-nın mətbuat xidmətindən bildirilib ki, agentliyin tabeliyində fəaliyyət göstərən "MİDA" MMC-nin və "ASAN xidmət"in əməkdaşlığı nəticəsində bu günə qədər ümumilikdə 19 mindən çox vətəndaşa xidmət göstərilib:** "Onlar "ASAN xidmət" mərkəzlərinə müraciət edərək, həmçinin "108" Çağrı mərkəzinə zəng edərək güzəştli mənzilin əldə edilməsi ilə bağlı onları maraqlandıran suallara cavab tapıb, ətraflı məlumat əldə edə biliblər. Hazırda "Güzəştli mənzil" elektron sisteminin əsasnaməsinin hazırlanması istiqamətində işlər davam etdirilir. "MİDA" MMC-nin sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsini təmin etmək məqsədilə may ayından etibarən "Elektron hökumət" portalında (www.e-gov.az ttp://www.e-gov.az/) çalışacaq "Güzəştli mənzil" sistemi 2 pilləli olacaq: 1-ci mərhələdə sözügedən elektron sistem vətəndaşın müraciətinin qeydiyyata alınmasını, onun müvafiq kateqoriyaya aid olduğu təsdiqləndikdə vətəndaşın şəxsi elektron kabinetinin yaradılmasını təmin edəcək. Elektron kabinetə sahib olmuş vətəndaş güzəştli mənzil almaq hüququnu əldə edir.

2-ci mərhələdə vətəndaş satışa çıxarılan mənzillər barədə KİV-də tanış ola biləcək elanlarla yanaşı, şəxsi elektron kabineti vasitəsilə də bildirişlər alacaq, mənzillərin yerləşdiyi yaşayış kompleksi, binalar və mənzillərin interyeri ilə virtual tanış olmaq və seçim etmək imkanını əldə edəcək".





❑ **Əli RAİS**

❑ **Fotolar müəllifindir**

# Atasını öldürən 17 yaşlı gənc psixiatriya dispanserinə göndərildi



**Atasını öldürməkdə təqsirləndirilən 17 yaşlı gəncin növbəti məhkəməsi olub. Cinayəti törədən 1999-cu il təvəllüdlü Kənan Qasımovun psixiatriya dispanserinə köçürülməsi qərara alınıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Tamila Nəsrullayevanın sədrliyi ilə atası Qulu Qasımovu öldürməkdə təqsirləndirilən K.Qasımovun cinayət işi üzrə məhkəmə prosesində mərhumun hüquqi varisi Tamella Qasımova məhkəməyə gəlməyib. O, teleqram vuraraq hazırda Gədəbəy rayonu Qoşabulaq kəndində yaşamış cavan qızı dünyasını dəyişdiyini söyləyib.

T.Qasımova Bakıya gəlməyə maddi imkanının olmadığını da qeyd edib. Onun istintaqa verdiyi ifadə elan edilib.

Məhkəmədə təqsirləndirilən şəxsin qanuni nümayəndəsi, anası Xatirə Qasımova ifadə verib.

O bildirib ki, oğlu son vaxtlar pis olub və psixoloji sarsıntı keçirib.

"Siqaret çəkməyə başlamışdı. Danışığını bilmirdi. Hamamda çiməndə, duşun altına paltarlı girirdi. Hiss edirdik ki, nəsə problemləri var. Hətta xəstəxanaya yatırmaq istəyirdik. Atası qoymurdu. Hadisədən bir gün əvvəl mənimlə dalaşdı. Gecədən səhərə qədər yatmadı. Səhər mən işə getdim. İşdə olan zaman ev yiyəsi dedi ki, atası ilə Kənan dalaşıb. Evə gəldim. Evdə nə Kənan, nə də yoldaşım var idi. Sabunçu xəsrəxanasına getdik. Ərim artıq ölmüşdü" - deyə X.Qasımova qeyd edib.

**Sərbəst ifadəsində Xatirə Qasımova onu da bildirib ki, Kənan heç zaman atasına və ona əl qaldırmıyıb**: "Son vaxtlar problem çoxalmışdı. Hətta yoldaşımla onun yanında dalaşan zaman Kənan heç vaxt qarışmırdı. Yoldaşım da 4 ilə yaxın döyüşlərdə olmuşdu. Müharibə veteranı idi. Əsəbi adam idi. Kənan üçün də həkimlər çağırırdıq. Həkimlər Kənanın xəstəxanaya yerləşdirilməsini demişdilər. Ərim qoymurdu. Deyirdi ki, oğlum xəstə deyil. Bilməzdik, axırı belə olar".

**Məhkəmədə hakimlərin suallarına cavab verən qadın bildirib ki, atası Kənanı çox istəsə də, onu incidirdi**: "Kənanı sərbəst qoymurdu. Hər tərəfdən onu sıxırdı. Məktəbə tez-tez dalınca gedirdi".

Məhkəmədə məlum olub ki, Kənan şizofreniya xəstəsi olub.

**Hakim Kənanın anasına sual verib:** "Siz bilirdiniz ki, oğlunuz şizofreniya xəstəsidir?"

Xatirə Qasımova isə oğlunun bu xəstəlikdən əziyyət çəkdiyini bilmədiyini deyib.

Məhkəmədə sənədlərin tədqiqi mərhələsi başlayıb.

Hakim elan edib ki, istintaq orqanı da müəyyən edib ki, hadisə zamanı Kənan Qasımov anlaqsız vəziyyətdə olub. Məhkəmə istintaqı başa çatıb.

Prokuror çıxış edərək, Kənan Qasımov barəsində məcburi xarakterli tibbi müalicəyə göndərilməsini istəyib.

Kənan Qasımovun vəkili bildirib ki, dövlət ittihamçısının çıxışı ilə razıdır.

Vəkil müdafiə etdiyi şəxs barəsində məcburi tibbi xarakterli müalicə təyin edilməsinin vacib olduğunu deyib.

Daha sonra hakimlər qərar qəbul etmək üçün müşavirə otağına yollanıblar.

Müşavirədən qayıdan hakimlər belə nəticəyə gəliblər ki, Kənan Qasımov cinayəti törədən zaman anlaqsız vəziyyətdə olub və onun barəsində məcburi qaydada müalicə təyin edilib. Qərarın icrası 1 saylı ruhi-əsəb dispanserinə həvalə edilib.

Bildirək ki, hadisə ötən ilin oktyabr ayında Xəzər rayonunun Binə qəsəbəsi, "Südçülük sovxozu" adlanan yaşayış məntəqəsində baş verib.

Gədəbəy rayon sakini 17 yaşlı Kənan Qasımov atası Qulu Qasımovun ürək nahiyəsindən bir bıçaq zərbəsi vurub.

K.Qasımovun hadisəni törədən zaman anlaqsız vəziyyətdə olmasının, psixoloji sarsıntı keçirməsinin səbəbi kimi təhsil aldığı liseydən çıxarılması və ailəsi ilə aralarındakı mübahisə əsas göstərilir.

Hadisənin təfərrüatı ilə bağlı onu da qeyd edək ki, K.Qasımov mətbəxdən bıçaq götürərək atasının yanına gəlib. O, atasını bıçaqla ürəyindən vurmaq istəsə də, ürəyinin dəqiq yerini bilməyib. K.Qasımov əlini öz ürəyinin üstünə qoyub. Bu yolla atasının ürək nahiyəsini müəyyən edib və vurub.

❑ **İ.MURADOV**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

* **Diaqnozu bilinməyən ağır hallar;**
* **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
* **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
* **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
* **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
* **Sidikdə və ya spermada qan;**
* **Spermanın azalması və itməsi;**
* **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
* **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
* **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
* **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
* **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
* **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
* **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
* **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## AMEA-nın sabiq xanım işçisi 8 il cəza aldı - dələduzluğa görə

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) sabiq əməkdaşı, dələduzluqda təqsirləndirilən 1973-cü il təvəllüdlü Aliyə Cahangirovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Musavat.com xəbər verir ki, hakim Tamella Nəsrullayevanın sədrlik etdiyi prosesdə hökm oxunub.

Hökmə əsasən A.Cahangirova 8 il müddətinə azadlıqdan məhrum edilib.

İttihama görə A.Cahangirova iki nəfərə qarşı dələduzluq əməli törədib, onların etibarından sui-istifadə edərək külli miqdarda pullarını ələ keçirib. AMEA-da dizayner vəzifəsində işləyən Cahangirova hər iki şəxsdən pulu iş qurmaq adı ilə alıb.

Aliyə Cahangirova Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq etmək) maddəsi ilə ittiham edilir.

## Gözətçisini güllələyən sabiq məmura 16 il cəza istənildi

**Öz evində gözətçi işləyən şəxsi güllələməkdə təqsirləndirilən Vidadi Quliyevin növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə əvvəllər hüquq-mühafizə orqanlarında yüksək vəzifə tutmuş Vidadi Quliyevin cinayət işi üzrə məhkəmə prosesində dövlət ittihamçısı çıxış edib. Prokuror cinayət əməlini törətməkdə təqdirləndirilən V.Quliyevin 16 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. V.Quliyevin vəkili çıxış üçün vaxt istəyib.**

Məhkəmə prosesi aprelin 27-nə təyin edilib.

Hadisə ötən ilin iyul ayında Sabunçu rayonunda baş verib. Vidadi Quliyev evində gözətçi işləyən Elşad Kazımov və onun tanışı Rəşad Əkbərovla birlikdə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsindəki kafelərdən birində yeyib-içiblər. Daha sonra Vidadi Quliyevin evinə gəliblər. Sonra söyüş üstündə mübahisə ediblər və V.Quliyev E.Kazımovu vurub.

V.Quliyev Cinayət Məcəlləsinin 29,120 (qəsdən adam öldürməyə cəhd) və 228-ci (Qanunsuz olaraq odlu silah saxlama) maddələri ilə təqsirli bilinir.

Bildirək ki, V.Quliyev hüquq-mühafizə orqanlarında çalışıb. Bir müddət əvvəl təqaüdə çəxib.

❑ **Xəbərləri hazırladı: İ.MURADOV**

# Onlar maşını elə sürür, biz isə...

## Yola düşməzdən öncə beynəlxalq təcrübə ilə bağlı bilmədiklərimiz...

**Qısa müddət sonra ölkəmizdə İslam Oyunları keçiriləcək. Bu isə o deməkdir ki, Avropa Oyunları zamanı yollarda hərəkətin tənzimlənməsi ilə bağlı yol verilən bəzi qüsurlar aradan götürülməlidir. Yəqin xatırlayırsız: Həmin ərəfədə avtobus sürücülərinin yol verdiyi bəzi pozuntular ciddi müzakirə mövzusu olmuşdu. İndi isə mediadan da məlum olur ki, bir çox sahələr üzrə ciddi hazırlıq gedir.**

Bu günlərdə isə xəbərlərdə avtobus sürücüləri ilə bağlı bir çox neqativ xəbərlər yer alıb. Onların arasında yol hərəkət qaydasını pozduğu halda polisə tabe olmayanlar da var, sərnişinlərə qarşı zorakılıq tətbiq edənlər də. Sərnişinlərin hər zaman şikayət etdiyi məqam isə onların kobudluğudur. *Bəs nümunə nəyi göstərir? Dünya ölkələrində avtobus sürücüləri necə hazırlanır, xəttə necə buraxılır, hansı sınaqlardan keçirilir?*





### Norveç sürücüləri polisdə yaddaş testindən keçir

Başlayaq Norveçdən. Bu ölkədə taksi, marşrut taksi, əlillərin daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitələrində sürücü işləmək üçün sürücülük vəsiqəsi ilə yanaşı, xüsusi iş biletinə də sahib olmaq lazımdır. Bu sənəd sürücünün tələblərə cavab verdiyini və sağlamlığının qaydasında olduğunu sübut edir. Sürücülük biletinin alınması barədə ərizə eyni zamanda sürücünün yaşadığı ərazi üzrə polis bölməsinə təqdim edilməlidir. Amma bununla paralel, polis bölməsinə sürücü ilə bağlı sağlamlıq arayışı da göndərilməlidir. Bəzi polis bölmələrində sürücülüyə namizədlər marşrutun yadda saxlanması üzrə testlərdən də keçməlidir.

### İsveçdə avtobus sürmək istəyirsənsə... az qala həkim olmalısan

İsveçdə avtobus sürücüsü olmaq üçün irəli sürülən tələblər isə nisbətən fərqlidir. Avtobus sürücüsü olmaq üçün lazımi kateqoriya üzrə sürücülük vəsiqəsinə sahib olmaq yetərli deyil. Tələblər aşağıdakı kimidir:

**- Avtobusun hissələri barədə texniki biliklərə sahib olmaq**

**- Sərnişinlərlə davranış qaydaları barədə məlumatlı olmaq**

**- Ətraf mühit barədə məlumat, istirahət, növbəli iş sistemi ilə işləmək bacarığı**

**- Yanğın təhlükəsizliyi barədə məlumat, yanğın zamanı sürücünün davranış qaydaları barədə məlumat**

**- Sərnişinin qanaxması, nəfəs darlığı, ürək dayanması zamanı təcili müdaxilə qabiliyyəti.**

### Almaniyada öncə imtahan verirsən, sonra kursdan keçirsən

Ən sərt qayda-qanunları ilə fərqlənən ölkə isə Almaniyadır. Bu haqda məlumat axtararkən Almaniyada yaşayan bir ukraynalı sürücünün dedikləri rastımıza çıxdı. Ukraynada bütün sürücülük dərəcələri üzrə imtahan vermiş vətəndaş Almaniyada yenidən sürücülük kursuna getməli olub. Bu kurs bitəndən sonra isə birja qəzetlərində avtobus və yük maşını sürücüləri üçün xüsusi kurslarının nə zaman başlanacağını öyrənmək lazım gəlir.

Amma kursa daxil olmaq üçün də almanlar üçün elementar sayılan bəzi bilgilər üzrə imtahan vermək lazımdır. Belə ki, ilk növbədə üçrəqəmlilər üzrə toplama-çıxma, vurma-bölmə əməlləri, alman dili və texniki fənlər üzrə imtahan vermək lazımdır. Bundan başqa, sağlamlıq da çox ciddi şəkildə yoxlanır: görmə, eşitmə qabiliyyəti, qanda narkotikin olub-olmaması. Bundan sonra 21 aylıq xüsusi kurslar keçilir.

Daha bir maraqlı detal - bu kurs üçün ümumən 3300 avro ödəmək lazımdır.

Təhsil almaq, imtahanı uğurla vermək də çarə deyil. Təhsildən sonra yarım illik təcrübə də tələb olunur. Tutaq ki, sürücü marşrut xətlərinə çıxmağa iddialıdır. Bu halda da ciddi imtahanlar, tibbi müayinə və mükəmməl yerli dil bilgisi tələb olunur. Bundan sonra isə ilk iki həftədə teoriyanı öyrənmək lazım gəlir. Bunun üçün iki həftə boyunca bütün dayanacaqları və yolların incəliklərini öyrənmək üçün təlimatçıların yanında təcrübə keçmək lazımdır.

### Həftə boyu 39 saat iş və...

Yalnız bu mərhələdən sonra sürücüyə avtobus etibar edilir. Həftə boyunca 39 saat işləmək lazım gəlir. Sürücü öz növbəsini bir il əvvəldən bilir. Məsələn, aprel ayından sürücülərə növbəti bir ildəki iş cədvəli bloknotda təqdim olunur. Zərurət yarandığı halda, sürücülər öz aralarında növbələri dəyişə bilərlər.

Almaniyada avtobus sürücüləri avtobusun salonunu gündəlik təmizləyir, texniki hissələri dəyişir, yağın dərəcəsini yoxlayır. İş prosesində avtobusun hansısa hissəsində nasazlıq əmələ gəlsə və ya salon qəfil bir hadisə nəticəsində çirklənsə (tutaq ki, azyaşlı sərnişin yeməyini yerə töksə) sürücü dərhal texniki yardıma müraciət edir, bu halda firma sözügedən avtobusu başqası ilə dərhal əvəzləyir.

Almaniyanın məşhur firmalarında sürücü işləyən şəxslərə bəzi güzəştlər də tətbiq olunur. Belə ki, şəxsi avtomobilini sığortalamaq istəyənlərə 20-30 faiz güzəşt tətbiq olunur. Bundan başqa, şəxsi avtomobili üçün ehtiyat hissələri alarkən 40 faizlik endirimdən yararlanırlar. Sürücünün ailə üzvləri isə yaşadıqları rayon və ona yaxın olan bir neçə rayon üzrə pulsuz biletə sahib ola bilirlər. Hər il firmadan xidməti geyim verilir: 5 ədəd köynək, 5 ədəd sviter, jilet, şalvar, hətta kəmər. Şəxsi geyim almaq istəyən firma işçisi isə mağazalarda 15 faizlik endirimdən yararlanır.

Amma Almaniyada da sürücü olmaq bizdəki kimi ciddi təmkin tələb edir. Üstəlik, nəzakətli olmaq vacib şərtlərdən biridir. Avtobuslar qrafik üzrə, dəqiqə hesabı ilə çalışdığı üçün sərnişinlərlə sürücülər arasında bəzən insidentlər də yaşanır. Əgər avtobusun dayanacaqdan ayrılma dəqiqəsi çatıbsa, ailə üzvlərindən biri avtobusa minib, digəri çatdırmasa, sürücü qapını açmağa məcbur deyil. Bu halda sürücü narazılıq edən sərnişinə polisə müraciət etməyi məsləhət görüb, yoluna davam edir.

### Bizim sürücülük vəsiqələri hansı ölkələrdə keçərlidir?

Maraqlıdır, bizim sürücülük vəsiqələri hansı ölkələrdə keçərlidir? Hesab edək ki, vəsiqəmiz olduğu üçün Avropada maşın kirayələmək istəyirik. Bu halda hansı ölkələrin qapıları üzümüzə açıqdır? Ümumiyyətlə, Azərbaycan yol hərəkəti haqqında Beynəlxalq Vyana Konvensiyasına qoşulub. Avropa, Asiya və Afrikanın 200-dən artıq ölkəsi bu konvensiyanın üzvüdür. Həmin ölkələrin hər birində Azərbaycanın sürücülük vəsiqəsi ilə avtomobil idarə etmək olar. Vyana Konvensiyasına qoşulmuş ölkələr bunlardır:

- Avstriya, Baham adaları, Bəhreyn, Belarus, Belçika, Bolqarıstan, Bosniya və Herseqovina, Braziliya, Böyük Britaniya, Macarıstan, Venesuela, Qana, Almaniya, Yunanıstan, Gürcüstan, Danimarka, Zair, Zimbabve, İsrail, İndoneziya, İran, İspaniya, İtaliya, Qazaxıstan, Kot-d'İvuar, Kuba, Küveyt, Latviya, Litva, Lüksemburq, Makedoniya, Mərakeş, Meksika, Monako, Norveç, Pakistan, Polşa, Portuqaliya, Rusiya, Rumıniya, San-Marino, Seyşel adaları, Seneqal, Slovakiya, Sloveniya, Tacikistan, Tailand, Türkmənistan, Özbəkistan, Ukrayna, Uruqvay, Filippin, Finlandiya, Fransa, Xorvatiya, Çexiya, Çili, İsveçrə, İsveç, Ekvador, Estoniya, CAR və sair.

### Xaricilər bizdə necə maşın sürə bilər?

Məsələnin o biri tərəfini də araşdıraq. Azərbaycana gələcək qonaqların burda necə və hansı şərtlər daxilində sürücülük edəcəyi ilə də maraqlandıq. Azərbaycan ərazisində xarici ölkələrə məxsus sürücülük vəsiqələri ilə bağlı yeni qaydalar tətbiq olunur, xarici sürücülük vəsiqələrinin bir ay müddətinə istifadəsinə icazə və əcnəbilərə sürücüklüklə bağlı yeni hüquqlar verilir. Azərbaycan prezidentinin təqdimatı ilə bununla bağlı "Yol hərəkəti haqqında" qanuna 35-1 (Xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi) maddəsinin əlavə edilməsi təklif edilir.

Yeni maddənin I hissəsinə əsasən, Azərbaycan vətəndaşı yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlılıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan ərazisində nəqliyyat vasitələrini ölkə ərazisinə daxil olduğu gündən bir ay ərzində idarə etmək hüququna malikdir. Azərbaycan vətəndaşı ölkə ərazisində nəqliyyat vasitələrini həmin müddətdən artıq idarə etmək üçün sürücülük vəsiqəsini bu qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

Maddənin II hissəsinə əsasən, Azərbaycanda müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlılıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququna malikdir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycanda müvəqqəti və ya daimi yaşamaq üçün icazə aldıqda, ölkə ərazisində nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsini həmin icazəni aldığı gündən bir ay müddətində bu qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

Maddənin III hissəsinə əsasən isə yuxarıdakı hissələrdə (I-II) nəzərdə tutulmuş hallarda sürücülük vəsiqəsi dəyişdirildikdə, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi yeni sürücülük vəsiqəsi ilə birlikdə həmin şəxsə qaytarılır.

**Qeyd edək ki, bununla bağlı qanunun hazırda qüvvədə olan variantında heç bir müddəa nəzərdə tutulmayıb.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 84 (6698) 22 aprel 2017

# Yoqanin yeni növü - pivə içib məşq edirlər

Moskvada yoqa üzrə trener Marina Vovçenko yeni növ yoqa məşğələsi keçirməyə başlayıb. Həmin məşğələdə məlum olub ki, ümumiyyətlə, yoqa məşğələləri zamanı pivə içmək mümkündür. Məşğələnin videoyazısı 21 apreldən etibarən Ruptly saytında yayımlanıb. Məşğələnin iştirakçılarından olan Qreqin sözlərinə görə, yoqanın yaradılış günündən bu vaxta qədər çatışmayan bir şey var idisə, o da məşğələnin pivə ilə keçirilməsi idi. Videoya rəy yazanlar isə bildiriblər ki, pivə və yoqa həvəskarları ilk dəfə 2014-cü ildə keçirilən Burning Man adlı festivalda həvəslərini alıblar. Belə məşğələ indi Berlin və Sidney sakinləri üçün açıqdır.





## Özünə toy eləmək üçün bank yardı

Avstriyada Əhməd Boyer adlı 36 yaşlı şəxs özünə toy edə bilmək üçün 4 bank yarıb. Bu, dünyadakı ən əcaib toy hazırlığı xəbəri kateqoriyasında yer alıb. Bir neçə il əvvəl baş vermiş bu hadisə gəlinin bədxərcliyi olub. Belə ki, qız toya azı 500 qonaq çağrılmasını istəyib və "Chanel" firmasından gəlinlik paltarı sifariş edib, həmçinin o nikah mərasimində gəzmək üçün yeni avtomobil və Karib adalarında bal ayı da istəyib. Bəy isə bu xərcləri ödəmək üçün çarəni bank qarət etməkdə görüb. O, 4 bankdan oğurluq edərək cəmi 400 min avro ələ keçirib. Ancaq bu pullar da gəlinin istəklərini həyata keçirməyə bəs etməyib. Əhməd Boyer həbs ediləndən sonra polisə verdiyi ifadədə bildirib ki, birinci bankı qarət edəndən sonra ələ keçirdiyi pullar elə həmin gün xərclənib qurtarıb. O, Vyanada növbəti dəfə bank yarmaq istəyəndə həbs edilib.



## Mobıl telefon qripi sağaldır

Yaponiyada cib telefonu üçün zil səsləri inkişaf etdirən bir firma qripdən tutulmuş burunların açıldığını elmi şəkildə sübut edən musiqiləri internetdə satışa çıxarıb. Cib telefonunun titrəmə hərəkəti ilə icra olunan bu musiqi burun tutulmasını müalicə etmək üçün yaradılıb.

Mobil telefonu 30 saniyə burunun ucuna tutmaq onun açılmasına kifayət edir. Yapon firması kişilərə dalğası 440 hers olan "lya" notunun, qadınlara isə dalğası 532 hers olan "do" notunun uyğun gəldiyini qeyd edib. Bunun bütün dünyada eyni olmadığı da xüsusi vurğulanıb.

# Dünyanın ən kök manekeninə qarşı taksi kobudluğu

Dünyanın ən kök manekeni Tess Hollidey İnstaqramdakı səhifəsində taksidən çəkdiyi videogörüntünü paylaşıb. Uber sisteminə bağlı olan sürücü manekenə deyib ki, onun köklüyü səhhəti ilə bağlı problemi olduğu qənaətini yaradır. Hollidey o söhbətin yalnız bir hissəsini yayıb. Onun sözlərinə görə, heç sürücü də arıq sayılmazdı. Amma o, olduqca kobud davranışı ilə seçilirdi. Amma maneken sürücünü kök olmasına baxmayaraq, tamamilə sağlamlığına inandırıb. Maneken eyni zamanda Uber təmsilçilərinə də bu olayla bağlı şikayətini ünvanlayıb.

Daha öncə xəbər yayılmışdı ki, Hollidey İnstaqram səhifəsində özünün alt paltarındakı geyimlərini nümayiş etdirib. Tess Hollidey dünyadakı ən kök maneken sayılır. 2015-ci ilin yanvar ayında o, nüfuzlu moda agentliyi Milk Model Managementlə müqavilə bağlayıb.




## Məhbus prokuror və polisin adını verib yemək sifariş etdi

Orenburq vilayətindəki türmələrdən birində məhbus prokuror və polislərin adından yemək sifariş edib. Lenta.ru saytının xəbərinə görə, bir neçə dəfə məhbəs həyatı yaşayan kişi son olaraq yol hərəkət qaydalarını pozduğu üçün türməyə düşüb. Qanunsuz olaraq saxladığı mobil telefonla müxtəlif kafe və restoranlara prokuror, hakim və polislərin adından yemək sifariş edib. Amma bu yeməklərin kimə yollanması hələlik müəyyənləşməyib. Hətta kuryerə zəng edərək, onun mobil telefonuna kontur yükləməsini də tapşırıb, mənzil başına çatanda pulunu ödəyəcəyini vəd edib. Amma kuryer deyilən ünvana yeməyi çatdıranda ona heç nə üçün ödəniş edilməyib. Bu hadisənin üstü açılanda isə məhbus dələduzluq maddəsi üzrə yenidən 5 illik həbs cəzasına məhkum olunub.




QOÇ - Sevindirici xəbərlər yolunuzu gözləyir. Gün ərzində ovqatınız tamamilə yüksək olacaq. Hətta nahardan sonra yeni təkliflər alma ehtimalınız da var. Daxili orqanlarınıza isə fikir verin.

BUĞA - Ulduzların düzümü yeni təkliflər alacağınızı bəyan etsə də, tələsməməyi məsləhət görür. Çünki təmkindən doğmayan qərarlarınız uğursuz ola bilər. Uzaq dəvətləri təxirə salın.

ƏKİZLƏR - Göy qübbəsi insanlara qarşı soyuqqanlı olmağınızdan şikayətlənir. Bacardığınız qədər təmkinli olun. Əsəblərinizi qoruyun ki, ürəyinizdəki çoxsaylı arzularınız reallaşsın.

XƏRÇƏNG - Səfərə çıxmaq üçün uğurlu gündür. Büdcəniz imkan verdiyi təqdirdə bu şansı əldən verməyin. Bu təqvimdə darıxdığınız adamlarla rastlaşacaqsınız. Şəxsi işlərinizdə dönüş də mümkündür.

ŞİR - Ümumi məziyyətlərinə görə gərgin təqvimdir. Lakin iradəniz hesabına bu xoşagəlməzlikləri dəf edə bilərsiniz. Xüsusən də nahardan sonra əsəblərinizi dəmir çərçivəyə salmalısınız.

QIZ - Bu gözəl gündə öhdəliklərinizi başa çatdırmağa tələsin. Çünki axşama yaxın səfərə çıxmaq və ya qonaq getmək üçün şansınız var. Təzə xəbərlər də mümkündür. Mübahisələrdən yayının.

TƏRƏZİ - Son vaxtlar riskli hərəkətlərə tez-tez yol verirsiniz. Hər halda, ehtiyatlı olun. Zamanla ayaqlaşmağa çalışın. Günün ikinci yarısında maraqlı insanlarla rastlaşacağınız gözlənilir.

ƏQRƏB - Bürcünüzün ixtiyarında olan bu təqvim uğurlu keçəcək. Odur ki, boş yerə vaxt itirməyin. Nahar ərəfəsində perspektivli sövdələşmələrdə iştirakınız gözlənilir. Uzaq yola çıxmayın.

OXATAN - Tez-tez ünsiyyətdə olduğunuz insanlarla xırda mübahisələriniz mümkündür. Lakin Göy qübbəsi belə cəfəngiyyata vaxt sərf etməyinizi məsləhət görmür. Kənar müdaxilələrə aludə olmayın.

OĞLAQ - Çətin məqamlarınız ötməkdədir. Bunu sürətləndirmək üçün etibar etdiyiniz hər kəsdən məsləhət almağa tələsin. Ulduzlar maddi durumunuzu dirçəltməyə çalışacaq. Axşama doğru müqəddəs məkanlara gedin.

SUTÖKƏN - Günün birinci yarısı hər cür sövdələşmə və müzakirələr üçün passiv vaxtdır. Odur ki, adi işlərlə məşğul olub səhhətinizə fikir verməlisiniz. Saat 15-dən sonra isə müəyyən uğurlar mümkündür.

BALIQLAR - Kimdənsə nəsə gözləmək indiki ağır vaxtda xəyaldan başqa bir şey deyil. Tənbəlliyin daşını atın. Artıq aktivləşmə məqamıdır. Saat 16-dan 19-a qədər bütün potensialınızı işə salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İtin qulağını, qardaşının sinəsini dişlədi



Amerikanın Florida ştatında bir iti dişləyən kişi saxlanıb. Bu barədə lenta.ru saytı WOFL FOX 35-ə istinadən xəbər verib. Polisin informasiyasına görə, 30 yaşlı Zakari Kelli bir neçə dəfə sevgilisinin itinin qulaqlarını dişləyib. Daha sonra isə qardaşı ilə dalaşıb. Sonuncu heyvanın hüquqlarını müdafiə edərək ona iti dişləməməyi tapşırırdı. O, itdən sonra dalaşdığı qardaşının da sinəsini dişləyib. Saxlanılan şəxs deyib ki, iti pis davranışına görə cəzalandırmaq istəyib. İt ciddi zədə almayıb. Kellini heyvana qarşı qəddar davranışda ittiham ediblər. İşə baxan hakim ona qardaşı və itlə hər hansı ünsiyyəti qadağan edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100